Azərbaycan Respublikası
Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının
Təhsil İnstitutu

*Ana dilimiz müstəqil Azərbaycanın,*
*Azərbaycan xalqının ən böyük milli*
*sərvətidir.*

*Ümummilli Lider*
*Heydər Əliyev*



# Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün Azərbaycan dili fənni üzrə kurikulum

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*28 aprel 2022-ci il tarixli F-238 nömrəli*
*əmri ilə təsdiq edilmişdir.*

Təmayül sinifləri üçün Azərbaycan dili fənni üzrə kurikulum aşağıdakı tərkibdə yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır:

**İslam Hüseynov** – DGKA-nın Tədris-metodiki işin təşkili şöbəsinin rəisi, filologiya üzrə fəlsəfə doktoru, dosent
**Aynur Rüstəmova** – Bakı şəhəri A. Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi, İlin müəllimi, dərslik müəllifi
**Elxan Nəcəfov** – Azərbaycan Respublikasının Təhsil İnstitutunun Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinin Əlaqələndirmə şöbəsinin müdiri, AMEA-nın doktorantı, İlin gənc alimi
**Esmira Tahirova** – ADA Məktəbinin Azərbaycan dili və ədəbiyyat şöbəsinin rəhbəri, Azərbaycan dili və ədəbiyyat müəllimi, Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərsliklərin qiymətləndirilməsi üzrə eksperti
**Xanımgül Həsənova** – Bakı şəhəri 62 nömrəli məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi, Respublika "Pedaqoji mühazirələr"inin qalibi
**Vüqar Adilov** – Əlavə təhsil müəssisəsi, Azərbaycan dili və ədəbiyyat müəllimi, Azərbaycan dili və ədəbiyyat üzrə əlavə dərs vəsaitlərinin müəllifi

**Rəyçilər:**
**Rafiq İsmayılov** – Azərbaycan dili dərsliklərinin müəllifi, filologiya üzrə fəlsəfə doktoru
**Aysel Xanəliyeva** – Azərbaycan Respublikasının Təhsil İnstitutunun Tədris resursları şöbəsinin aparıcı mütəxəssisi, dərslik müəllifi
**Ülkər Nurullayeva** – Bakı Oksford Məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi
**Muradxan Hüseynov** – Laçın rayonu Mehman Səfərov adına Qozlu kənd tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**tərəfindən məsul şəxslər:**

**Mənsur Məhərrəmov**, ARTİ-nin Təhsil standartları və proqramları şöbəsinin müdiri

**Rasim Abdurazaqov**, ARTİ-nin Tədris resursları şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**İmran İbişov**, ARTİ-nin Təhsil standartları və proqramları şöbəsinin aparıcı mütəxəssisi

# *Mündəricat*


| | |
|---|---|
| Giriş | 5 |
| I. Tam orta təhsil səviyyəsinin təmayül siniflərində Azərbaycan dili təliminin məzmunu | 7 |
| 1.1. Ümumi təlim nəticələri | 8 |
| 1.2. Məzmun xətləri | 8 |
| 1.3. Məzmun standartları | 9 |
| II. Təlimin təşkili və qiymətləndirmə | 18 |
| 2.1. Təliminin təşkilinə dair əsas tələblər və Azərbaycan dili fənninin xarakterinə uyğun təlim yanaşmaları | 17 |
| 2.1.1. Təlimin təşkilinə dair əsas tələblər | 17 |
| 2.1.2. Azərbaycan dili fənninin xarakterinə uyğun təlim yanaşmaları | 17 |
| 2.2. Şagird nailiyyətlərinin qiymətləndirilməsi | 23 |
| 2.2.1. Qiymətləndirmənin əsas prinsipləri | 23 |
| 2.2.2. Qiymətləndirmə meyarları | 24 |
| III. Resurslar | 34 |
| 3.1. Azərbaycan dili kabinetinin minimum tələblərə uyğun təchizatı | 35 |
| IV. Tezaurus | 37 |

# Giriş

Azərbaycan dili fənni üzrə kurikulum ümumtəhsil məktəblərinin tam orta təhsil səviyyəsinin təmayül siniflərində Azərbaycan dili təliminin əsas məqsədlərini təyin etməklə ümumi təlim nəticələrinə nail olmaq istiqamətində bütün fəaliyyətləri əks etdirən konseptual sənəddir. Tam orta təhsil səviyyəsində təhsilin şagirdlərin meyil və maraqları nəzərə alınmaqla qurulması onların inkişafını təmin etmək baxımından çox vacibdir. Bu baxımdan dil tədrisinin keyfiyyətinin yüksəldilməsi, təmayül siniflər üzrə təhsil alan şagirdlərdə bu sahə ilə bağlı kompetensiyaların formalaşdırılması və təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan dili şagirdlərin şəxsiyyət kimi tərbiyə olunması prosesində, onların mənəvi keyfiyyətlərinin və yaradıcı qabiliyyətlərinin formalaşmasında, milli mədəniyyətlə tanışlıq, adət-ənənələrin qorunması və inkişafında mühüm rol oynayır. Azərbaycan dili öz ifadə imkanlarının zənginliyi, fonetik və qrammatik quruluşunun mükəmməlliyi ilə səciyyələnir. Azərbaycan dilinin dövlət dili və dünya azərbaycanlılarının əsas ünsiyyət vasitəsi olması onun təhsil müəssisələrində keyfiyyətli tədrisini zəruri edir.

Təhsil sistemində Azərbaycan dili fənni aparıcı yerlərdən birini tutur. Müxtəlif biliklərin qorunması və mənimsənilməsi formasını təmsil edən Azərbaycan dili sadəcə öyrənmə obyekti deyil, həm də öyrənmə və ünsiyyət vasitəsi olmaqla da demək olar ki, bütün tədris fənləri ilə sıx əlaqəlidir. Bu baxımdan təhsil ocaqlarında Azərbaycan dilinin tədrisi bir tərəfdən fənnə dair kifayət qədər yüksək səviyyədə bilik təmin etməli, digər tərəfdən şagirdlərə həyatın müxtəlif sahələrində istifadə edəcəkləri yüksək səviyyədə nitq vərdişləri aşılamalıdır. Azərbaycan dili eyni zamanda mühüm tərbiyə vasitəsidir – bəşəriyyətin mənəvi dəyərləri ilə tanış olmağı, şagirdlərin mənəvi, əxlaqi, ünsiyyət və bədii mədəniyyətinin formalaşmasını, dünya haqqında öz baxış və düşüncələrini ifadə etmələrini, fərqli görüşləri olan insanlarla ünsiyyət qura bilmələrini təmin edir.

Tam orta təhsil səviyyəsində Azərbaycan dilinin öyrənilməsi aşağıdakı məqsədlərə çatmağı hədəfləyir:

• vətəndaşlıq və vətənpərvərlik hissinin aşılanması, ana dilinə sevgi tərbiyəsi; insan fəaliyyətinin müxtəlif sahələrində mənəvi dəyər, ünsiyyət və bilik vasitəsi kimi dilə şüurlu münasibət;

• nitqin və zehni fəaliyyətin inkişafı; ünsiyyətin müxtəlif sahə və şəraitlərində Azərbaycan ədəbi dilində sərbəst və səlis istifadəni təmin edən kommunikativ bacarıq və vərdişlərin formalaşdırılması; şifahi qarşılıqlı əlaqə və qarşılıqlı anlaşma üçün bacarıqların inkişafı;

• Azərbaycan dilinin quruluşu, qrammatik xüsusiyyətləri, üslubi baza və imkanları, ədəbi dilin əsas normaları, nitq etiketləri və s. haqqında biliklərin mənimsənilməsi; təhsilalanların lüğət ehtiyatının və istifadə olunan qrammatik vasitələrin növlərinin zənginləşdirilməsi;

• dil faktlarını tanımaq, təhlil etmək, təsnif etmək, müqayisə etmək, bu faktları ünsiyyət sahəsinə, həmçinin vəziyyətə uyğunluq və normativlik baxımından qiymətləndirmə bacarıqlarının formalaşdırılması; məlumat axtarışını həyata keçirməklə lazımi məlumatın əldə edilməsi, analiz edilməsi, şərh edilməsi və bununla bağlı fikir bildirilməsi bacarıqlarının inkişafı;

• əldə edilmiş bilik və bacarıqların nitq praktikasında, o cümlədən peşə yönümlü ünsiyyət sahəsində tətbiqi; müxtəlif sahələrdə və ünsiyyət vəziyyətində dilin normativ və məqsədəuyğun istifadəsinin təkmilləşdirilməsi.

Bu hədəflərə çatmaq kommunikativ, dil və linqvistik, eləcə də mədəni kompetensiyaların formalaşması və inkişafı prosesində həyata keçirilir. Bu kompetensiyaların mahiyyətini aşağıdakı kimi izah etmək olar:

***Kommunikativ kompetensiyalar*** **– nitq fəaliyyətinin bütün növlərinə, şifahi və yazılı nitq mədəniyyətinin əsaslarına aid bacarıqlara sahib olma, yuxarı sinif şagirdlərinin təcrübəsinə, maraqlarına, psixoloji xüsusiyyətlərinə uyğun olaraq dili müxtəlif sahələrdə və ünsiyyət vəziyyətlərində istifadə etmək bacarığı və qabiliyyəti.**

***Linqvistik kompetensiyalar*** **– işarə sistemi və ictimai hadisə kimi dil haqqında, dilin quruluşu, inkişafı və funksiyası, eləcə də bir elm kimi dilçilik haqqında ümumi biliklərin formalaşması, Azərbaycan ədəbi dilinin əsas normalarını bilmək, nitqin lüğət bazasının və qrammatik vasitələrinin zənginləşməsi; dil hadisələrini və faktlarını təhlil və qiymətləndirmə qabiliyyətinin formalaşması; müxtəlif lüğətlərdən istifadə etmək bacarığı.**

***Ümummədəni kompetensiyalar*** **– milli mədəniyyətin ifadə forması kimi dilin dərk edilməsi, xalqın dil və tarixinin əlaqəsi, Azərbaycan dilinin milli və mədəni xüsusiyyətləri, nitq etiketlərindən düzgün istifadə bacarığı və s.**

Təmayüllü təlimin təşkilinin məqsədi şagirdlər tərəfindən gündəlik həyatda, təhsillərinin daha yüksək pillədə davam etdirilməsində və gələcək əmək fəaliyyətlərində zəruri olacaq uyğun profil fənlərin inteqrasiyası əsasında bilik və bacarıqlar sisteminin davamlı və şüurlu mənimsənilməsinin təmin edilməsidir.

Bu baxımdan Azərbaycan dili hümanitar təmayüllü fənn olaraq dilimizin məqsədyönlü şəkildə öyrənilməsini, şagirdlərdə fənnə davamlı marağın formalaşdırılmasını, onların nitq və kommunikasiya qabiliyyətlərinin üzə çıxarılmasını və inkişaf etdirilməsini təmin edir.

Azərbaycan dili fənni üzrə kurikulumunun hazırlanmasında müasir dövrdə dil tədrisinə qoyulan tələblər, beynəlxalq və milli təcrübə, eləcə də təmayül siniflərinin xüsusiyyətləri nəzərə alınmışdır.

# I. Tam orta təhsil səviyyəsinin təmayül siniflərində Azərbaycan dili təliminin məzmunu



## 1.1. Ümumi təlim nəticələri

**Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üzrə Azərbaycan dilindən şagird:**

- hiss və düşüncələrini söz, yazı, oxu və bədən dili vasitəsilə ifadə edir;
- əvvəlcədən hazırlaşdığı və ya hazırlıqsız qoşulduğu mövzuya, problemin həllinə uyğun faktlardan və arqumentlərdən məharətlə istifadə edərək müzakirələrdə öz fikirlərini sərbəst şəkildə ifadə edir;
- ünsiyyət zamanı effektiv kommunikasiya üsulları və strategiyaları nümayiş etdirir (inandırma, güzəştə getmək, münaqişələrin idarə olunması);
- sözlərin mənalarını kontekstə uyğun müəyyənləşdirir, ifadə və fikirləri interpretasiya edir;
- mətni leksik və üslubi baxımdan redaktə edir, genişləndirir və ya ixtisar edir;
- müzakirə olunan mövzu, mətn və problem ətrafında şərhlər verir;
- mətnləri üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir, struktur elementlərinin məzmunun açılmasındakı rolunu dəyərləndirir;
- müxtəlif üslublu və tipli mətnlər yazır, çatdıracağı məlumatın əyaniliyini təmin etmək üçün qrafik, cədvəl, sxemlərdən istifadə edir;
- yazılı və rəqəmsal mənbələrdən müvafiq məlumatları toplayır, müəllif hüququnu qorumaqla sitat gətirir, parafraz edir;
- şifahi və yazılı nitqində ədəbi dilin zəruri normalarını, dil qaydalarını tətbiq edir.

## 1.2. Məzmun xətləri

Məzmun xətləri ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsi olub, şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək və onu sistemləşdirmək məqsədi daşıyır. Dil tədrisi ilə bağlı kompetensiyaları “başa düşmə” (dərk etmə) və “başa salma” şəklində qruplaşdırmaq mümkündür. Birinci qrupa oxumaq və dinləmək, ikinci qrupa isə danışmaq və yazmaq kimi bacarıqları daxildir. Azərbaycan dili ilə bağlı məzmun xətləri sadalanan bacarıqları, həmçinin dil qaydalarını əhatə edir.

Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri təhsilin bütün pillələri üzrə aşağıdakı kimi təyin edilmişdir:

- **Dinləyib-anlama və danışma**
- **Oxu**
- **Yazı**
- **Dil qaydaları**

**Dinləyib-anlama və danışma.** Dinləmə müxtəlif məlumatların şəxslərə və ya səs cihazlarına qulaq asaraq əldə olunması prosesidir. Dinləmə, eşitmədən fərqli olaraq müəyyən bir məqsəd daşıyır. Danışma isə müxtəlif informasiyanı ifadə etməkdir.

Bu məzmun xətti dinlənilən məlumatları ümumiləşdirmək, müxtəlif mövqelərin maraqlarını müəyyənləşdirmək, əsas və ikinci dərəcəli fikirləri fərqləndirmək, auditoriyanı nəzərə alaraq dəlillərlə dəstəklənən inandırıcı fikirlər söyləmək, uyğun söz və ifadələri seçmək, tədqiqat xarakterli suallar vermək, lazımi qeydlər etmək kimi müxtəlif bacarıqların formalaşdırılmasını təmin edir.

**Oxu.** Oxu mətndəki fikirlərin, duyğu və düşüncələrin qavranılması, dərk olunması, dəyərləndirilməsi kimi məqsədlər daşıyan, fizioloji, zehni, psixoloji yönləri olan prosesdir. Məlumatı əldə etmə kanallarının sayının əhəmiyyətli dərəcədə artdığı müasir dövrdə kitab öyrənmə prosesinin əsas predmeti olaraq qalmaqdadır.

Oxu şagirdlərin dil duyumunun inkişafını, fikrin ifadə olunmasında sözün xüsusiyyətlərinin, cümlə və mətnin rolunun anlaşılmasını, lazımi vərdişlərin məqsədyönlü şəkildə təkmilləşdirilməsini, şagirdlərdə bədii zövq, tənqidi, məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsini təmin edir.

**Yazı.** Yazı şagirdlərin fikir və düşüncələrinin, duyğu və müşahidələrinin müxtəlif üslublu və ya tipli mətnlər formasında təqdim olunmasını təmin edir. Oxu prosesində qazanılan bacarıqlar yazı ünsiyyəti vasitəsilə genişləndirilərək qarşılıqlı əlaqəyə çevrilir. Yazı şifahi nitq prosesindən kənarda fikirlərin ədəbi dilin normaları gözlənilməklə təsirli söz və ifadələr seçilərək çatdırılmasına, şagirdlərdə təqdimat hazırlaya bilməyə, nitqini təşkil etmə və ifadə etmə bacarıqlarını formalaşdırmağa, müvafiq əməli yazı nümunəsinin seçilib hazırlanmasına imkan yaradır.

**Dil qaydaları.** Dilin quruluşu, dildəki sözlərin mənaları, cümlə qurularkən sözlər arasında məna əlaqəsinin gözlənilməsi və s. ilə bağlı zəruri məlumatlar həmin dildə danışanlar üçün öyrənilməsi vacib olan əsas məsələlər sırasındadır.

Bu məzmun xətti şagirdlərə dil qaydaları ilə bağlı ən vacib məlumatların, durğu işarələrindən istifadə qaydalarının öyrədilməsinə imkan yaradır. Şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan linqvistik biliklərin mənimsənilməsini, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılmasını, ədəbi dilin funksional və fərdi üslublarının xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsini və təcrübədə tətbiqini təmin edir.

**Məzmun xətlərinin təmayül sinifləri üçün nəzərdə tutulmuş standartları şagirdlərdə:**

- dinlədiklərinə, həmçinin oxuduqlarına tənqidi və yaradıcı münasibət bildirmək;
- tanış olduğu fikirləri yeni məlumatlarla zənginləşdirmək;
- nitqin müxtəlif formalarından yerində istifadə etmək;
- yaradıcı yazılar yazmaq;
- ictimai həyatda baş verən hadisələrə və sosial-mədəni sahələrdəki yeniliklərə yaş səviyyəsinə uyğun münasibət bildirmək;
- maraq dairəsinə görə müstəqil məlumatlar toplamaq, onları sistemləşdirmək;
- təhlil və tətbiq etməyi bacarmaq və s. kimi bir sıra bacarıqların yaranmasına və ya inkişaf etdirilməsinə xidmət etməlidir.

## 1.3. Məzmun standartları

*(Siniflər üzrə məzmun standartları üçün verilən şərhlər standartın reallaşmasına kömək məqsədi daşıyır)*

### X sinif

**1. Dinləyib-anlama və danışma məzmun xətti üzrə şagird:**

**1.1. Dinlədiyi fikri dəyərləndirir.**

1.1.1 Mövzu ilə bağlı dinlədiyi fikirləri ümumiləşdirir.

*İnformasiyanı əsas və ikincidərəcəli olmaqla qruplaşdırır.*

1.1.2. Tərəflərin mövzu üzrə mövqelərinə adekvat reaksiya verir.

- *Müzakirə olunan mövzu, mətn və problemlə bağlı konkret suallar hazırlayır.*
- *Verilən suallara geniş cavablar və şərhlər verir.*
- *Əvvəlcədən hazırlaşdığı mövzuya aid müzakirələrdə problemlərə münasibət bildirir.*

1.1.3. Müzakirə zamanı əsas məqamları şərh edir.

*Əsas ideyanı müəyyən edib onunla bağlı fikir və anlayışları şərh edir.*

1.1.4. Dinlədiyi məlumatlarda əsas məqamlarla bağlı qeydlər götürür.

- *Dinlədiyi məlumatlardakı açar məqamları qeyd edir.*
- *Öz fikirlərini dəstəkləyən iddiaları müəyyənləşdirir.*
- *Müzakirə zamanı qarşı tərəfin mülahizəsinə münasibət bildirmək üçün danışanın nitqindən qeydlər götürür.*

**1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.**

1.2.1. Təqdimat zamanı qrafik informasiyanı rabitəli mətn şəklində təqdim edir.

- *Təqdim olunan müxtəlifformatlı (vizual, şifahi) materialları izah edir.*
- *Əsas ideyanı dəstəkləyən qrafik detalları analiz edir.*
- *Müxtəlifformatlı (vizual, şifahi) materialların mövzunu, problemi öyrənməkdə faydasını şərh edir.*

1.2.2. Nitqini təsirli etmək üçün müvafiq ifadələrdən və sintaktik konstruksiyalardan istifadə edir.

- *Auditoriyanı nəzərə almaqla əvvəlcədən hazırlaşdığı təqdimatda dil vasitələrindən məqsədyönlü istifadə edir.*
- *Nitqin başlanğıcında və sonunda qəbul edilmiş standart ifadələrdən istifadə edir.*

1.2.3. Müzakirələrdə şəxsi fikrini əsaslandırmaq üçün arqument gətirir.

- *Müzakirələrdə şəxsi fikirlərini arqumentlərlə əsaslandırır.*
- *Öz fikrini vurğulamaq üçün məqsədəuyğun təsvir, fakt və detallardan istifadə edir.*

1.2.4. Müxtəlif mövzuların müzakirəsinə hazırlıqsız qoşularaq mövqeyini bildirir.

- *Təqdimat və debatlarda səslənən fikirlərə münasibətini əsaslı şəkildə ifadə edir.*
- *Hazırlıqsız qoşulduğu müzakirələrdə dinlədiklərindən faktlar toplayaraq mövqeyini bildirir.*

1.2.5. Nitqində orfoepik tələblərə yiyələndiyini nümayiş etdirir.

- *Danışarkən sözləri düzgün tələffüz edir.*
- *Məqsədəuyğun olaraq intonasiyadan düzgün istifadə edir.*

1.2.6. Sual tərtib etmək bacarığı nümayiş etdirir.

- *Müzakirə olunan mövzu, mətn və problem ətrafında fikri dəqiqləşdirmək üçün konkret suallar verir.*
- *Ətraflı informasiya əldə etmək üçün suallar tərtib edir.*

**2. Oxu məzmun xətti üzrə şagird:**

**2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.**

2.1.1. Mətnin (cümlənin) təsir gücünü artıran söz və ifadələri dəyərləndirir.

- *Mətnin təsir gücünü artıran söz və ifadələri müəyyənləşdirir.*
- *Mətnin təsir gücünü artırmaq üçün söz və ifadələri dəyişir.*

2.1.2. Müxtəlif üslublu mətnlərdə işlənmiş nitq fiqurlarının rolunu izah edir.

- *Mətndə nitq fiqurlarını müəyyənləşdirir.*
- *Mətndəki nitq fiqurlarını kontekstdən çıxış edərək interpretasiya edir.*

2.1.3. Söz və ifadələrin mənasını kontekstdən çıxış edərək şərh edir.

*Tanış olduğu söz və ifadələrin kontekstə uyğun mənalarını müəyyənləşdirir.*

2.1.4. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli sözlərin mənasından çıxış edərək sözü izah edir. (***tele***qram, ***tele***fon, avto***qraf***, tele***qraf***, foto***qraf*** və s.)

2.1.5. Sözün leksikoqrafik izahını verir.

*Sözün sadə və anlaşıqlı şəkildə leksikoqrafik izahını verir.*

**2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.**

2.2.1. Mətndəki hadisələrdə məntiqi əlaqələri əsaslandırır.

- *Mətndəki səbəb-nəticə əlaqəsini analiz edir.*
- *Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir.*
- *Mətndən çıxardığı nəticələri təsdiqləmək üçün həmin mətndəki faktlara istinad edir.*

2.2.2. Mətndəki əsas və yardımçı fikirləri dəyərləndirir.

- *Mətndə faktoloji informasiyanı müəyyənləşdirir.*

- *Mətndə faktoloji informasiyanı əsas və ikincidərəcəli olmaqla fərqləndirir.*
- *Mətndəki ideyanın açılmasında əsas və yardımçı fikirlərin rolunu izah edir.*

2.2.3. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini dəyərləndirir.

*Müəllifin dil xüsusiyyətlərinin oxucu üzərində təsirini şərh edir.*

2.2.4. Mətnin struktur elementlərinin məzmunun açılmasındakı rolunu izah edir.

- *Mətnin süjeti ilə fabulası arasındakı fərqi izah edir.*
- *Mətndəki yazılı və qrafik elementlərin uyğunluğunu təhlil edir.*
- *Mətndə məzmuna və ideyaya uyğun yeri gəldikcə haşiyə verir.*
- *Epiqrafa istinad edərək mətnin məzmunu və ideyası haqqında fikir bildirir.*
- *Müəllifin seçdiyi mətn strukturunu və kompozisiya elementlərini şərh edir.*

2.2.5. Mətndəki məlumatlardan istifadə etməklə yeni məlumat(lar) əldə edir.

- *Mətndəki açıq şəkildə verilmiş informasiyadan istifadə etməklə yeni məlumat(lar) əldə edir.*
- *Mətndəki gizli şəkildə (sətiraltı) verilmiş informasiyanı izah edir.*
- *Mətndəki informasiyalardan istifadə etməklə məntiqi nəticə çıxardır.*

**3. Yazı məzmun xətti üzrə şagird:**

**3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.**

3.1.1. Mətni plan əsasında yazır.

- *Plana uyğun mətndə veriləcək informasiyanı müəyyənləşdirir.*
- *Plana uyğun əsas fikirləri formalaşdırır.*

3.1.2. İnformativ və izahedici mətnlər yazır (təsviri, mühakimə, qarışıq).

- *Çox sayda yazılı və rəqəmsal mənbələrdən müvafiq məlumatları toplayaraq mətn yazır.*
- *Mənbələrdən istifadə edərkən müəllif hüququnu saxlamaqla sitat gətirir.*
- *İddialarında ədalətlilik nümayiş etdirir, fikir irəli sürərkən auditoriyanın bilik səviyyəsini, mənəvi həssaslığını, dəyərlərini və mümkün qərəzli münasibətini əvvəlcədən müəyyənləşdirərək mətn tərtib edir.*
- *Mətnin əsas hissələrini bir-birinə bağlayır, abzaslar arasında keçid cümlələrdən istifadə edir.*
- *İddialarla səbəblər arasında, səbəblər və dəlillər arasında, iddialar və əks-iddialar arasında əlaqələri aydınlaşdırmaq üçün sözlər, ifadələrdən istifadə edir.*
- *Təqdim olunan arqumentdən irəli gələn və onu dəstəkləyən sonluq verir.*
- *Mətnin məzmun və ideyasına uyğun epiqrafdan istifadə edir.*

3.1.3. Fikri əsaslandırmaq üçün arqument gətirir.

*Əvvəlcədən müəyyən olunmuş mövzuların və ya mətnlərin təhlilində əsaslandırıcı və uyğun dəlillərdən istifadə edir.*

3.1.4. Mətni məqsədəuyğun şəkildə təkmilləşdirir.

- *Başqasının yazısını redaktə edir, genişləndirir və ya ixtisar edir.*
- *Başqasının yazısını müxtəlif üslublarda leksik baxımdan redaktə edir.*
- *Mətni əlavə faktlarla zənginləşdirir.*

3.1.5. Mətn yazarkən durğu işarələri ilə bağlı qaydalara riayət edir.

*Mətni yazarkən durğu işarələrindən düzgün istifadə edir.*

3.1.6. Məqsədə müvafiq olaraq əməli yazılar hazırlayır.

- *Tələblərə uyğun ərizə yazır.*
- *Tələblərə uyğun izahat yazır.*
- *Tələblərə uyğun tərcümeyi-hal yazır.*

3.1.7. Hazırladığı mətndə verbal və qeyri-verbal informasiyadan məqsədəuyğun şəkildə istifadə edir (qrafik, cədvəl, sxemlərdən istifadə).

- *Verbal şəkildə təqdim olunmuş informasiyanı qrafik şəklə salır.*
- *Qrafik şəkildə təqdim edilmiş informasiyanı verbal mətnə çevirir.*
- *Hazırladığı mətni qrafik şəkildə təqdim edir.*
- *Verbal və qeyri-verbal şəkildə verilmiş informasiyanı uyğunlaşdırır.*

3.1.8. Sözlərin düzgün yazılış qaydalarına riayət edir.

- *Mürəkkəb sözlərin düzgün yazılış qaydasına riayət edir.*
- *Müxtəlif nitq hissələrinə aid olan sözləri orfoqrafik cəhətdən düzgün yazır.*
- *Xüsusi isimlərin yazılışına riayət edir.*

**4. Dil qaydaları məzmun xətti üzrə şagird:**

**4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.**

4.1.1. Şifahi və yazılı nitqində ədəbi dilin qrammatik qaydalarına riayət edir.

- *Cümlədə fikrin düzgün ifadəsi üçün qrammatik vasitələrdən (hal və mənsubiyyət şəkilçilərindən) səmərəli istifadə edir.*
- *Cümlədə məqsədəuyğun olaraq feilin müxtəlif şəkillərindən və zamanından düzgün istifadə edir.*
- *Sözləri quruluşca növünə görə qruplaşdırır.*
- *Nitq hissələrinin xüsusiyyətlərini müəyyən edir.*
- *Nitqində köməkçi nitq hissələrinin, söz birləşmələrinin cümlədə və mətndə əlaqə yaratmaq imkanlarından səmərəli şəkildə istifadə edir.*
- *Yazılı və şifahi nitqində sadə cümlələrin müxtəlif modellərindən istifadə edir (söz-cümlə, yarımçıq cümlə, geniş, müxtəsər və s.).*
- *Yazılı və şifahi nitqində mürəkkəb cümlə konstruksiyalarından istifadə edir (mürəkkəb cümlələrin qurulması, vasitəsiz nitqin vasitəli nitqə çevrilməsi).*

4.1.2. Ədəbi dilin orfoepik normalarına əməl edir.

- *Nitqində səsuzanması hadisəsinə riayət edir (uzunsaitli sözlər, eynicinsli və müxtəlifcinsli qoşasaitli sözlər).*
- *Səsartımı hadisəsi baş verən sözləri müəyyən edir (müxtəlifcinsli saitlər arasında, saitlər və samitlər arasında).*
- *Müxtəlif qaydalara əsasən səsdüşümü hadisəsi baş verən sözləri qruplaşdırır (müxtəlifcinsli saitlər arasında).*
- *Səsdəyişimi hadisəsinə uğrayan sözləri düzgün tələffüz edir (söz kökündə və söz sonunda).*
- *Sözlərin düzgün vurğusunu müəyyənləşdirir (söz kökündə).*

4.1.3. Sözlərin leksik-semantik xüsusiyyətlərindən çıxış edərək ədəbi dilin norma (leksik) və üslublarının tələblərinə riayət edir.

- *Bədii üslubda həqiqi və məcazi mənada işlənmiş poetik ifadələrin mənasını anladığını nümayiş etdirir.*
- *Akademik mətndə işlənmiş terminlərin və ixtisas sözlərinin mənasını müəyyənləşdirir.*
- *Auditoriyanı nəzərə alaraq dil vasitələrindən kontekstə uyğun istifadə edir.*
- *Malik olduğu söz ehtiyatından yerində və düzgün istifadə edir.*

4.1.4. Nitqində orfoqrafik normanın tələblərinə riayət edir.

- *Üslubi baxımdan sözlərin böyük hərflə yazılması (Siz) və xüsusi isimlərin yazılış qaydalarına riayət edir.*
- *Durğu işarələrindən məqsədəuyğun şəkildə (nöqtə, vergül, nida, sual, tire, qoşa nöqtə, dırnaq) istifadə edir.*
- *Müxtəlif nitq hissələrinə aid mürəkkəb sözlərin yazılışı qaydalarına riayət edir.*
- *Sözləri sətirdən-sətrə qaydalara uyğun düzgün keçirir (sadə, düzəltmə və mürəkkəb sözlər).*

**XI sinif**

**1. Dinləyib-anlama və danışma məzmun xətti üzrə şagird:**

**1.1. Dinlədiyi fikri dəyərləndirir.**

1.1.1. Mövzu ilə bağlı dinlədiyi fikirləri ümumiləşdirir.

*Dinlədiyi təqdimatlardakı məlumatları müxtəlif aspektlərdən təhlil edir.*

1.1.2. Tərəflərin mövzu üzrə mövqelərinə adekvat reaksiya verir.

- *Digərlərinin fikirlərini dəqiqləşdirmək üçün müəyyən suallar verir.*
- *Ehtiyac yarandıqda tərəfdaşlarının mövqeyini dəstəkləyən fikirlər bildirir.*

1.1.3. Müzakirə zamanı yaranan mürəkkəb məqamlara aydınlıq gətirir.

*Başqasının verdiyi yeni məlumatları dəyərləndirir və ehtiyac yarandıqda öz mövqeyini dəyişir.*

1.1.4. Dinlədiyi məlumatlarda əsas məqamlarla bağlı qeydlər götürür.

*Şərhedənin arqument və iddiaları ilə bağlı qeydlər götürür.*

**1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.**

1.2.1. Təqdimat zamanı qrafik informasiyanı rabitəli mətn şəklində təqdim edir.

*Öz təqdimatında vurğulamaq istədiyi məqamları dəstəkləyən müxtəlifformatlı (vizual, şifahi) materialların komponentlərindən istifadə edir.*

1.2.2. Nitqini təsirli etmək üçün müvafiq ifadələrdən və sintaktik konstruksiyalardan istifadə edir.

*Əvvəlcədən hazırlaşdığı təqdimatı auditoriyanı nəzərə alaraq dəyişir.*

1.2.3. Müzakirələrdə şəxsi fikrini əsaslandırmaq üçün arqument gətirir.

- *Müzakirələrdə dinlədiyi fikrə münasibətini arqumentlərlə əsaslandırır.*
- *Əsas fikri vurğulayan iddia və faktları təqdim edir.*
- *Təhlili, düşüncəni, araşdırmanı, tədqiqatı əsaslandırmaq üçün bədii, informativ və ya elmi-kütləvi mətnlərdən dəlil çıxarır.*

1.2.4. Müxtəlif mövzuların müzakirəsinə hazırlıqsız qoşularaq mövqeyini bildirir.

*Təqdimat, debatlarda tanış olmadığı mövzulara münasibətini əsaslı şəkildə ifadə edir.*

1.2.5. Nitqində orfoepik tələblərə riayət edir.

- *Danışarkən sözləri aydın tələffüz edir.*
- *Uyğun səs tonundan istifadə edir.*
- *Məqsədəuyğun olaraq intonasiyadan düzgün istifadə edir.*

1.2.6. Sual tərtib etmək bacarığı nümayiş etdirir.

*Digərlərinin fikirlərinin təfərrüatını müəyyən edən suallar verir.*

**2. Oxu məzmun xətti üzrə şagird:**

**2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.**

2.1.1. Mətnin (cümlənin) təsir gücünü artıran söz və ifadələri dəyərləndirir.

- *Müəllifin məqsəd və mövqeyini müəyyənləşdirmək üçün işlədilən söz və ifadələri şərh edir.*
- *Müəllifin məqsədli şəkildə işlətdiyi söz və ifadələrin təsir gücünü dəyərləndirir.*

2.1.2. Müxtəlif üslublu mətnlərdə işlənmiş nitq fiqurlarının rolunu izah edir.

*Mətndəki nitq fiqurlarını kontekstdən çıxış edərək interpretasiya edir.*

2.1.3. Söz və ifadələrin mənasını kontekstdən çıxış edərək şərh edir.

*Tanış olmadığı söz və ifadələrin kontekstə uyğun mənalarını müəyyənləşdirir.*

2.1.4. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli sözlərin mənasından çıxış edərək sözü izah edir. (***meqa***bayt, ***meqavat***, ***hiper***aktiv, ***hiper***toniya və s.)

2.1.5. Sözün leksikoqrafik izahını verir.

*Hiperonimi və əsas əlamətləri sadalamaqla sözü izah edir.*

**2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.**

2.2.1. Mətndəki hadisələrdə məntiqi əlaqələri əsaslandırır.

- *Mətndəki məqsəd-nəticə əlaqəsi arasındakı uyğunluğu analiz edir.*
- *Mətndə problem-qərar əlaqəsini müəyyənləşdirir.*

2.2.2. Mətndəki əsas və yardımçı fikirlər arasında əlaqəni qiymətləndirir.

- *Mətndə açıq şəkildə verilmiş fikri müəyyənləşdirir.*
- *Mətndə açıq və gizli şəkildə verilən məlumatları müəyyənləşdirən məqamları təyin edir.*
- *Mətndən çıxardığı nəticələri təsdiqləmək üçün həmin mətnə və əlavə faktlara istinad edir.*
- *Mətndəki əsas və yardımçı fikirlərdən istifadə edərək əsaslandırılmış arqumentlər gətirir.*

2.2.3. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini araşdırır.

*Müəllifin dil və üslub xüsusiyyətlərinin oxucu üzərində təsirini şərh edir.*

2.2.4. Mətnin struktur elementlərinin məzmunun açılmasındakı rolunu izah edir.

- *Məzmun və strukturunu saxlamaqla mətnin süjetini genişləndirir və ya dəyişiklik edir.*
- *Mətndəki ideyanın çatdırılmasında rol oynayan yazılı və vizual elementləri uyğunlaşdırır.*
- *Epiqrafa istinad edərək mətnin məzmunu və ideyası haqqında fikir bildirir.*
- *Qarışıq tipli (növlü) mətnlərdə struktur elementlərini nəzərə almaqla hadisələrin zamanını, məkanını müəyyən edir.*
- *Müəllifin seçdiyi mətn strukturunu və kompozisiya elementlərini şərh edir.*

2.2.5. Mətndəki məlumatlardan istifadə etməklə yeni məlumat(lar) əldə edir.

- *Mətndəki açıq şəkildə verilmiş informasiyadan istifadə etməklə yeni məlumat(lar) əldə edir.*
- *Mətndəki gizli şəkildə verilmiş informasiyadan istifadə etməklə yeni məlumat(lar) əldə edir.*
- *Mətndəki informasiyalardan istifadə etməklə məntiqi nəticə çıxardır.*

**3. Yazı məzmun xətti üzrə şagird:**

**3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.**

3.1.1. Mətni plan əsasında yazır.

- *Hazırlayacağı mətnin mövzusunu, başlığını müəyyənləşdirir.*
- *Hazırlayacağı mətndə əsas fikirləri tezis şəklində ifadə edir.*
- *Hazırlayacağı mətni tələblərə uyğun tərtib edir.*

3.1.2 . İnformativ və izahedici mətnlər yazır (müxtəlif üslublu mətnlər yazır)

- *Axtarış sözlərindən səmərəli istifadə edərək çox sayda yazılı və rəqəmsal mənbələrdən müvafiq məlumatları toplayır.*
- *Mənbələrdən istifadə edərkən müəllif hüququnu saxlamaqla əldə etdiyi nəticələrdən parafraz edərək sitat gətirir.*
- *Əsaslandırmanın uyğun olub olmadığını və dəlillərin uyğun və yetərli olub-olmadığını qiymətləndirir.*
- *İddialarında, həmçinin əks-iddialara ədalətlilik nümayiş etdirir, fikir irəli sürərkən auditoriyanın bilik səviyyəsini, mənəvi həssaslığını, dəyərlərini və mümkün qərəzli münasibətini əvvəlcədən müəyyənləşdirərək mətn tərtib edir.*
- *Mətnin əsas hissələrini əlaqələndirmək üçün uyğun və müxtəlif keçidlərdən istifadə edir, mürəkkəb fikir və anlayışlar arasında rabitəlilik yaradır.*
- *İddialarla səbəblər arasında, səbəblər və dəlillər arasında, iddialar və əks-iddialar arasında əlaqələri aydınlaşdırmaq üçün sözlər, ifadələrdən istifadə edir.*
- *Fikrini xülasə şəklində ifadə edir.*

3.1.3. Fikri əsaslandırmaq üçün arqument gətirir.

*Əvvəlcədən müəyyən olunmamış mövzuların və ya mətnlərin təhlilində əsaslandırıcı və uyğun dəlillərdən istifadə edir.*

3.1.4. Mətni məqsədəuyğun şəkildə təkmilləşdirir

- *Yazdığı mətnə yenidən baxır, redaktə edir, genişləndirir və ya ixtisarlar aparır.*
- *Yazdığı mətni üslubi baxımdan redaktə edir.*
- *Yazdığı mətni struktur baxımından redaktə edir.*
- *Fikrini əsaslandırarkən sintaktik konstruksiyaları məqsədəuyğun şəkildə istifadə edir.*
- *Başqasının yazısını yenidən baxır, redaktə edir, genişləndirir və ya kiçildir, ixtisarlar aparır.*
- *Başqasının yazısını üslubi baxımdan redaktə edir.*
- *Başqasının yazısını struktur baxımından redaktə edir.*

3.1.5. Mətn yazarkən durğu işarələri ilə bağlı qaydalara riayət edir.

*Mətni yazarkən məqsədəuyğun olaraq durğu işarələrindən düzgün istifadə edir.*

3.1.6. Məqsədə müvafiq olaraq əməli yazılar hazırlayır.

- *Verilmiş situasiyaya uyğun press-reliz yazır.*
- *Tələblərə uyğun rəy yazır.*
- *Tələblərə uyğun CV yazır.*

3.1.7. Hazırladığı mətndə verbal və qeyri-verbal informasiyadan məqsədəuyğun şəkildə istifadə edir (qrafik, cədvəl, diaqramın növlərindən, sxemlərin növlərindən istifadə)

- *Verbal şəkildə təqdim olunmuş informasiyanı qrafik şəklə salır.*
- *Qrafik şəkildə təqdim edilmiş informasiyanı verbal mətnə çevirir.*
- *Fikri lakonik şəkildə ifadə edir.*

3.1.8. Sözlərin düzgün yazılış qaydalarına riayət edir.

- *Üslubi cəhətdən sözlərin böyük və ya kiçik hərflə yazılışına riayət edir.*
- *Mürəkkəb adların yazılışına riayət edir.*

**4. Dil qaydaları məzmun xətti üzrə şagird:**

**4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.**

4.1.1. Şifahi və yazılı nitqində ədəbi dilin qrammatik qaydalarına riayət edir.

- *Cümlədə fikrin düzgün ifadəsi üçün şəxsə və kəmiyyətə görə uzlaşmanın tələblərindən səmərəli istifadə edir.*
- *Cümlədə məqsədəuyğun olaraq feilin müxtəlif qrammatik məna növlərindən, şəkillərindən və zamanından düzgün istifadə edir.*
- *Sözləri quruluşca növünə görə qruplaşdırır.*
- *Müxtəlif nitq hissələrinə aid olan xüsusiyyətləri müəyyən edir.*
- *Nitqində köməkçi və əsas nitq hissələrinin, söz birləşmələrinin cümlədə və mətndə əlaqə yaratmaq imkanlarından səmərəli şəkildə istifadə edir.*
- *Yazılı və şifahi nitqində sadə cümlələrin şəxsə görə növlərindən düzgün istifadə edir.*
- *Yazılı və şifahi nitqində mürəkkəb cümlə konstruksiyalarından istifadə edir(müxtəlif üslublarda mürəkkəb cümlə konstruksiyalarından istifadə).*

4.1.2. Ədəbi dilin orfoepik normalarına əməl edir.

- *Nitqində səsuzanması hadisəsinə riayət edir (kökdə və şəkilçidə səsuzanması).*
- *Səsartımı hadisəsi baş verən sözləri müəyyən edir (şəkilçilərdə səsartımı hadisəsi. Məs: la2 – nan, nən).*
- *Müxtəlif qaydalara əsasən səsdüşümü hadisəsi baş verən sözləri qruplaşdırır(şəkilçilərdə səsdüşümü hadisəsi. Məs: iyyat – iyat).*
- *Səsdəyişimi hadisəsinə uğrayan sözlərə nitqində düzgün riayət edir (şəkilçilərdə səsdəyişimi hadisəsi. Məs: lar2 – rar, rər).*

- *Sözlərin düzgün vurğusunu müəyyənləşdirir (sözə şəkilçilər artırıldıqda).*

4.1.3. Sözlərin leksik-semantik xüsusiyyətlərindən çıxış edərək ədəbi dilin norma (leksik) və üslublarının tələblərinə riayət edir.

- *Bədii üslubda həqiqi və məcazi mənada işlənmiş ifadələrin mənasını anladığını nümayiş etdirir.*
- *Tanış olmadığı sözlərin və ifadələrin mənasını kontekstə uyğun olaraq izah edir.*
- *Akademik mətndə işlənmiş terminlərin və ixtisas sözlərinin mənasını müəyyənləşdirir.*
- *Auditoriyanı nəzərə alaraq dil vasitələrindən kontekstə uyğun istifadə edir.*
- *Malik olduğu söz ehtiyatından yerində və düzgün istifadə edir.*

4.1.4. Nitqində orfoqrafik normanın tələblərinə riayət edir.

- *Mürəkkəb adları və abreviaturaları, sözləri sətirdən-sətrə qaydalara uyğun düzgün keçirdir (mürəkkəb adlar və abreviaturalar).*
- *Yazılış qaydalarına uyğun olaraq yazır.*
- *Durğu işarələrindən məqsədəuyğun şəkildə (nöqtəli vergül, üç nöqtə, mötərizə) istifadə edir.*
- *Müxtəlif məqamlarda defisin işlənməsinə riayət edir. (sözlərdə, şəkilçilərdə və s.)*
- *Sözləri sətirdən-sətrə qaydalara uyğun düzgün keçirdir (mürəkkəb adlar və abreviaturalar).*

# II. Təlimin təşkili və qiymətləndirmə



## 2.1. Təliminin təşkilinə dair əsas tələblər və Azərbaycan dili fənninin xarakterinə uyğun təlim yanaşmaları

### 2.1.1. Təlimin təşkilinə dair əsas tələblər

Müasir dövrdə pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslanır.

Pedaqoji prosesdə:

- müəllimlər əlaqələndirici, istiqamətverici, məsləhətçi subyekt kimi çıxış edir;
- şagirdlər tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər.

**Pedaqoji prosesin məqsədəuyğun şəkildə təşkilində aşağıdakı prinsiplər əsas götürülür:**

1. Pedaqoji prosesin tamlığı
2. Təlimdə bərabər imkanların yaradılması
3. Şagirdyönümlülük
4. İnkişafyönümlülük.
5. Fəaliyyətin stimullaşdırılması
6. Dəstəkləyici mütin yaradılması
7. Elmilik
8. Sistemlilik
9. Əyanilik
10. Şüurluluq və fəallıq
11. Bilik və bacarıqların tamlığı və əlaqəliliyi

**Fəaliyyət xətləri.** Tam orta təhsil səviyyəsinin təmayül siniflərində Azərbaycan dili fənni üzrə məzmun standartlarını reallaşdırmaq üçün aşağıdakı fəaliyyət xətlərindən istifadə olunması məqsədəuyğundur.

1. Problem formalaşdırmaq və həll etmək
2. Proqnozlaşdırmaq.
3. Tədqiqatı planlaşdırmaq, icra etmək, nəticələri təqdim etmək.
4. Məlumat mübadiləsi etmək.
5. Müzakirə etmək.
6. Modelləşdirmək.
7. Təhlil etmək.
8. Ümumiləşdirmə aparmaq.
9. Dəyərləndirmək.
10. Ünsiyyət qurmaq.
11. Əməkdaşlıq etmək.
12. Müşahidə aparmaq.
13. Tətbiq etmək.
14. Təqdim etmək.
15. Özünü yoxlamaq.
16. Özünü qiymətləndirmək.

### 2.1.2 Azərbaycan dili fənninin xarakterinə uyğun təlim yanaşmaları

Hər bir dil həmin dildə danışan fərdlərin nitqində öz təsdiqini tapır və nitq prosesinə çevrilir. Dil dərsləri elə təşkil olunmalıdır ki, şagirdlərin dil təlimində dil qaydaları ilə bağlı əldə etdikləri biliklər onların nitqində təzahür etsin, öz təsdiqini tapsın, təlimə marağı artırsın, onları axtarışlara, yeni məlumatlar əldə etməyə sövq etsin, ünsiyyət imkanlarını genişləndirsin, onlarda öyrənmə, danışma, dinləyib-anlama, yazı, oxu bacarıqlarını formalaşdırsın. Bildiyimiz kimi, Azərbaycan dil təlimində ən sonda əldə olunan ümumiləşdirilmiş

nəticə 11-ci sinfi bitirən şagirdlərdə sifahi, yazılı nitq bacarıq və vərdişlərinin formalaşmasıdır ki, şagirdlər bu bacarıqlardan gələcək fəaliyyətlərində istifadə edə bilsinlər. Fikirlərini çatdırarkən söz və ifadələri düzgün seçmələri, hər hansı məsələ haqqında danışarkən müəyyən məntiqi ardıcıllığa riayət etmələri, dilin fonetik, leksik, qrammatik qanunlarına əməl etmələri, fakt və dəlillərə istinadən işlədilən hər bir sözün əhəmiyyətini dərk edərək aydın və sadə cümlələrlə nitqlərini qurmaları kimi bacarıqlara yiyələnsinlər.

Səmərəli dərsin təşkilində ən önəmli məqamlardan biri təlim metodlarını müəyyənləşdirərkən məzmun xətlərinin nəzərə alınmasıdır. Təlim texnologiyalarını məzmun xətləri üzrə aşağıdakı kimi qruplaşdırmaq məqsədəuyğundur.

**Dinləyib-anlama.** Dinləyb-anlama kommunikativ prosesin ən mühüm aspekti olaraq praktikada tətbiq olunmağa ehtiyacı vardır. Dinləyib-anlama fəaliyyəti zamanı müxtəlif produktiv vərdişlər qazanılır. Bu məzmun xətti ilə bağlı bacarıqları inkişaf etdirmək üçün aşağıdakı texnologiyalardan istifadə olunması faydalı hesab edilir:

- İnformasiya boşluqları
- Məndən sonra de
- Səhvimi düzəlt
- Şəkilli imla
- Yarımçıq hekayə
- Zəncirli hekayə
- Səhvlərlə hekayə
- Auksion

**İnformasiya boşluqları** eyni mətnin və ya məlumatın iki ayrı-ayrı vərəqdə müəyyən boşluqlarla verilməsidir. Bu üsulun tətbiqi zamanı iki şagird iştirak edir və bir şagirdin vərəqində verilməyən məlumat digər şagirdin vərəqində verilir. Bunun üçün mətni hər iki şagird diqqətlə dinləməli, fikirləri izləməli və ardıcıl oxumalıdır. Bu metodun tətbiqi əməkdaşlıq və bir-birini gözləmək bacarığı formalaşdırır.

**Məndən sonra de** metodu ilə müəllim istənilən bir mətni qısa şəkildə söyləyir və bitdikdən sonra şagirdlər mətni yadda saxladıqları kimi şərh edirlər. Bunun üçün şagirdlər mətni diqqətlə dinləməli və məlumatı anlamalıdırlar.

**Səhvimi düzəlt** ən uğurlu dinləyib-anlama metodlarından biridir. Müəllim və ya hər hansı bir şagird mətni bir-iki dəfə oxuyur, şagirdlərin mətndəki əsas və dəstəkləyici fikirləri müəyyənləşdirə bilmək bacarıqlarını sual-cavab və mətnə uyğun şəkillərlə yoxlayır. Sonra qəsdən mətni səhvlərlə deyir, diqqətlə qulaq asan şagirdlər səhvləri düzəldir.

**Şəkilli imla.** Bu metod şagirdlərin verbal mətnlərin qeyri-verbal mətnlərə çevirə bilmək bacarıqlarının inkişaf etdirilməsində çox böyük rol oynayır və şagirdlərin düşüncəsini, məntiqi təfəkkürünü möhkəmləndirir. Şagirdlər mətni dinlədikdən sonra ona aid qeyri-verbal materialları qarışıq formada lövhəyə düzür, diqqətlə dinləyən şagirdlər şəkillərlə hadisələr arasında uyğunluğu müəyyənləşdirirlər.

**Yarımçıq hekayə**. Müəllim mətni oxuduqdan sonra yarımçıq hekayəni şagirdlərə iş vərəqlərində paylayır və ikinci mərhələdə şagirdlər mətni yadda saxladıqları kimi tamamlayırlar. Qrupların təqdimatında düzgün cavablar uzlaşdırılır və ən yaxşı tamamlanmış mətni təqdim edən qrup oyunun qalibi olur. Bu metodla şagirdlər çoxlu yeni söz öyrənirlər.

**Zəncirli hekayə** üsulu vasitəsilə şagirdlər bir sıraya düzülərək hər hansı bir mövzu ətrafında ardıcıl hekayə qururlar: 1-ci şagird 2 söz, 2-ci şagird 3 söz, 4-cü şagird 5 söz... Və belə davam edərək cümlələr qurur və hekayəni tamamlayırlar. Bunun uğurla başa çatması üçün şagirdlər bir-birilərini diqqətlə dinləməlidirlər ki, mətni mənaca ardıcıl və düzgün tamamlasınlar.

**Danışma.** Düzgün, səliqəli danışıq dilində şagirdlər lüğət və qrammatikanı düzgün işlətməli, qarşılıqlı düzgün əlaqə yaratmalı, dəqiq vaxt müəyyənləşdirməlidirlər. Axıcı danışıq isə əksinə, heç bir vaxt qoymadan, qrammatik və lüğət düzgünlüyünə əsaslanmayan, sürətli danışıq dilidir. Bu gün hər bir müəllim şagirdlərdə əvvəlcə səliqəli, düzgün, sonra axıcı danışıq vərdişlərini aşılamalıdır. Burada fəaliyyət növü və şagirdin səviyyəsi də nəzərə alınmalıdır. Danışma fəaliyyəti ilə bağlı aşağıdakı texnologiyalardan istifadə etmək olar:

- Sinektika
- Müzakirə xəritəsi
- Debat
- Rollu oyun və simulyasiya

**Sinektika.** Qədim yunan dilində "müxtəlifcinsli elementlərin birləşməsi" mənasını verir. Metod olaraq sosial-psixoloji motivasiyaya əsaslanmış kollektiv intellektual fəaliyyətin nəticəsinə və tənqidi və yaradıcı təfəkkürün inkişafına yönəlmişdir. Şagirdlərin düşünmə fəaliyyətini qrup şəklində aktivləşdirir, stimullaşdırır.

Bir mövzu ətrafında müzakirə təşkil edilir, onun həlli yollarının (kreativ yollar) tapılması təklif edilir, problemin həlli yolları müzakirə olunur, müsbət və mənfi tərəfləri müəyyənləşdirilir. Məsələn, bir qrup problem irəli sürən tərəf kimi, digərləri isə problemin həlli yollarını təklif edənlər kimi çıxış edirlər. Müzakirəni idarə edən şəxs hər iki tərəfin fikirlərini ifadə etməyə şərait yaradır. Problemin həlli yollarını təklif edən tərəflərin variantları müzakirə olunur, problemi olan tərəf bu yolların hansının həllində maraqlı olduğunu ifadə edir və fikrini əsaslandırır. "Mən istərdim ki, bu məsələnin həlli ....." tipli cümlələrlə fikirlərini ifadə edirlər. Beləliklə də, hər iki tərəf ümumi qərara gəlir.

**Müzakirə xəritəsi.** Müəyyən edilmiş mövzu, məsələ və ya problem ətrafında ideyaların, informasiyanın, təəssüratların, tənqidin və təkliflərin qarşılıqlı fikir mübadiləsidir. Müzakirə xəritəsi şagirdə şəxsi konseptual anlayışını qurmağa, ideyalarını əsaslandırmağa, müzakirəni stimullaşdırmağa kömək edir və şagirdlərdə proqnozlaşdırma, nəticə çıxarma, ümumiləşdirmə, təhliletmə, məntiqi və tənqidi təfəkkür, fikir ifadə etmək, dinləmə mədəniyyəti, əsaslandırmaq və şifahi nitq bacarıqlarını inkişaf etdirir.

Bu üsuldan istifadə edilərkən şagirdlərə hər hansı bir mövzu, məsələ və ya problem ətrafında sual verilir. Ardıcıllıq belə aparılır.

- Geniş spektrli sual verilir.
- Cavabları və fərziyyələri dinlənilir.
- Deyilənlər üçün izah və əsaslandırma istənilir.
- Alternativ fikir və ideyalara sövq edilir.
- Fikirləri əsas mövzuya yönəldən sual verilir.
- Müzakirənin sonunda əsas məqamlar və deyilən fikirlər ümumiləşdirilir, bir daha vurğulanır.

**Debat.** Özündə hər hansı bir mövzunun formal müzakirəsini ehtiva edir, lakin bu digər müzakirələrdən onunla fərqlənir ki, şagirdlər fikirlərinə görə qruplara ayrılıb həmin fikri müdafiə etməlidirlər. Debat arqument, əsaslandırma, tənqidi yanaşmanı tələb etdiyi üçün məntiqi-riyazi təfəkkürlü şagirdlər bu üsulu daha çox sevir.

Debatda bir komanda (qrup) verilən fərziyyəni (fikri) təsdiq, digəri isə təkzib edən arqumentlər gətirməlidir. Çıxış zamanı qrup nümayəndələrindən arqumentləri dinləmək və onlara suallar hazırlamaq və arqumentə qarşı əks-arqument gətirmək tələb olunur. Debat zamanı şagirdlərdə dinləyib-anlama, nəticə çıxarma, ümumiləşdirmə, sual tərtib etmə və sual vermə, təhlil etmə, əsaslandırma, arqument gətirmə, fikri müdafiə etmə və s. bacarıqlar inkişaf etdirilir. Debat elə bir prosesdir ki, özündə hər hansı bir mövzunun formal müzakirəsini ehtiva edir.

**Rollu oyun və simulyasiya.** Rollu oyun və simulyasiya yeni problemə müxtəlif yanaşmaları əks etdirir. İştirakçılar cəmiyyətin müxtəlif üzvlərinin timsalında konkret bir problemi öz mövqelərindən qiymətləndirirlər. Bu üsulun tətbiqində əsas məqsəd şagirdlərin rəy söyləmək və fikirlərini əsaslandırmaq, tənqidi təfəkkürlərini

inkişaf etdirmək, əməkdaşlıq etmək, digərlərinin fikrinə münasibət bəsləmək bacarıqlarının formalaşdırılmasıdır. Şagirdlərin bu oyunlardan əldə etdiyi başlıca keyfiyyət – emosional təəssüratdır. Emosional təəssürat dərsin gedişində informasiyanın, problemin səmərəli qavranılması üçün əsas rol oynayır.

**Oxu.** Oxu nitq fəaliyyətinin növlərindən biridir. Sinifdə oxu məlumatverici xarakterdə olmalı, şagird açar sözləri tapmalı, əsas və dəstəkləyici faktları müəyyənləşdirməli, əsas ideyanı başa düşərək oxumalı və mənanı anlamalıdır. Danışma fəaliyyəti ilə bağlı aşağıdakı texnologiyalardan istifadə etmək olar.

- Blum kubu
- İnsert
- Eyler-Venn diaqramı
- Sinkveyn
- Qarışıq cümlələr
- Cümləni tap
- 4N1KH

**Blum kubu.** Blum kubu qoyulmuş məqsədə uyğun tapşırığın formalaşdırılmasıdır. Kubun üzünün hər birində müxtəlif məqsədyönlü suallar yazılır. Şagird bu suallara uyğun cavabları tapmaqla məsələni həll edir və təlim məqsədinə çatır. Eyni zamanda bu kimi suallara cavab verməklə şagirdin öyrənilən mövzuya müxtəlif aspektlərdən yanaşmalarına imkan yaradır.

Blum kubu ümumiləşdirmə aparmaq üçün ən səmərəli üsullardan biridir. Bu üsuldan dərsin bütün mərhələlərində və istənilən dərs tipində istifadə etmək olar. Lakin məsələyə konseptual baxış tələb etdiyindən bu üsuldan mövzuların sonunda və ya ümumiləşdirici dərslərdə istifadə edilməsi daha məqsədəuyğun hesab edilir.

**İnsert** (**interaktiv qeydetmə sistemi**) üsulu şagirdlərin tənqidi təfəkkürünün, oxu bacarıqlarının inkişaf etdirilməsi üçün nəzərdə tutulmuş bir texnologiyadır. Dil dərslərində informasiya xarakterli mətnlərin oxunması və oradakı zəruri informasiyanın seçilməsi mühüm əhəmiyyət kəsb edir. Oxu prosesində şagirdlər

- hər abzası aşağıdakı kimi işarələyir:
- məlumat başa düşülmür – (?)
- bildiyim məlumat – (√)
- yeni məlumat – (+)
- əvvəlkiləri inkar edən məlumat – (-) Bu yolla bütün siniflə ümumiləşdirmələr aparılır, hansı məlumatın şagirdlərə nə dərəcədə aydın olmadığı, onların hansı məlumatı bilmədikləri müəyyənləşdirilir və izahat işləri aparılır.

**Eyler-Venn diaqramı** üsulu əşya və hadisələrin müqayisəsində, onların fərqli və oxşar cəhətlərinin diaqramlaşdırılmasinda istifadə olunur. Oxu dərslərində əşya, hadisə, məsələ, anlayışları müqayisə etmək və onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün də istifadə oluna bilər.

**Sinkveyn** "beşlik" deməkdir. Bu üsul az sözlə əsas fikri ifadə edə bilmək bacarığını formalaşdırmağa kömək edir. Hər hansı bir mətnin sonunda mətnin ideyasını, əsas fikrini bir neçə sözlə qısa, lakonik şəkildə ifadə etmək tapşırılır. Əvvəlcə mətnin məzmunu ilə bağlı bir isim, sonra həmin ismi təyin edən iki sifət, daha sonra söylənmiş ismə uyğun üç feil, növbəti mərhələdə mətnin ideyasını dörd sözdən ibarət birləşmə ilə ifadə etmək və nəhayət, ən sonda mətnin əsas fikrini yenidən bir isimlə ifadə etmək tapşırılır.

**Qarışıq cümlələr** üsulundan istifadə zamanı mətndəki cümlələr qarışıq formada verilir və şagirdlər qruplarda birgə fəaliyyət nəticəsində mətndən götürülmüş qarışdırılmış abzas və ya cümlələri baş verən hadisələrin məntiqi ardıcıllığına uyğun sıraya düzürlər.

**Cümləni tap** üsulunda müəllim mətni oxuyarkən şagirdlər aşağıdakı tələblərə uyğun fəaliyyət göstərir

və müvafiq tapşırığı yerinə yetirirlər:

1. ən mənalı cümləni seç;
2. ən maraqlı fikri müəyyənləşdir;
3. təəccüblü fikir ifadə edən cümləni seç;
4. mətndəki əsas ideyanı ifadə edən cümləni tap;
5. anlamadığın cümləni göstər;
6. rast gəldiyin fakt və hadisələri xatırladan cümləni göstər;
7. razılaşdığın və ya razılaşmadığın fikirləri ifadə edən cümləni göstər.

**4N1KH metodu (Kiplinq metodu).** Bu texnika Azərbaycan dili dərslərində oxuyub-anlama, dinləyib-anlama, şifahi və yazılı nitq bacarıqlarının formalaşdırmaqda səmərəli üsullardan biri hesab edilir. Suallar texnikasıdır. Suallar (Nə? Necə? Niyə? Nə vaxt? Kim? Harada?) hər hansı bir işlə bağlı olaraq məlumat toplamaq məqsədilə istifadə olunmuş informasiyanı anlamaq və ötürmək üçün səmərəli üsuldur. Hər hansı müzakirəni genişləndirməyə, araşdırmaları doğru istiqamətə yönəltməyə və qənaətləri əsaslandırmağa kömək edir. Metodun mahiyyəti onu tələb edir ki, suallar həmişə eyni ardıcıllıqda verilə bilməz. Veriləcək sualların ardıcıllığı situasiyanın tələbinə görə məntiqi ardıcıllıqla qurulmalıdır. Hər bir sual əvvəl verilmiş suallara alınan cavabları dəqiqləşdirməyə və ya konkretləşdirməyə xidmət etməldir. Verilən suallara ətraflı, konkret və orijinal cavablar problemi daha dolğun təhlil etməyə, əlavə imkanlar açmağa və həllində əhəmiyyətli irəliləyişə nail olmağa imkan verir.

Suallar elə qurulmalıdır ki, cavabları "bəli" və ya "xeyr" olmasın. Suallara mümkün qədər ətraflı cavablar alınsın, detalları təyin etsin, həqiqi cavabları üzə çıxarsın.

**4N1KH modelinin** oxuyub-anlamada, dinləyib-anlamada, mətnin tərtib edilməsində tətbiqi:

**4N1KH texnikası** ilə dinləyib-anlama və ya oxuyub-anlama bacarığını şagirddə formalaşdırmaq olduqca səmərəli ola bilər. Bu texnika anlama üçün bütün növ mətnlərdə: bədii, elmi, publisistik və s. vasitəçi ola bilər.

- Mətndə mövzu nədir?
- Mətndə hadisə(lər) nə vaxt baş vermişdir?
- Mətndəki hadisələr necə təsvir edilmişdir?
- Mətndə təsvir edilən hadisə niyə baş verdi?
- Mətndəki hadisə(lər)də kimlər yer almışdır?
- Mətndəki hadisə(lər) harada baş vermişdir?

**Yazı**. Yazı daha ciddi və dilin qanunlarına tabe olan bir fəaliyyət növü kimi başa düşülür. Şagirdlər yazı vasitəsilə öz fikirlərini daha geniş ifadə edirlər, qrammatik modellərdən və birləşmələrdən istifadə edərək eşitdiklərini düzgün yazırlar. Sərbəstliyi, plan tərtib etməyi, yeni layihələr qurmağı, müxtəlif yazı nümunələrini tərtib etmək bacarığını əldə edirlər. Orta məktəbdə yazı fəaliyyəti texnologiyaları bunlardır:

- Təsviri yazılar
- Hekayə, nağıl və şəkil üzrə yazılar
- Analitik yazılar
- Arqumentli yazı
- Layihə yazıları
- Məktublar
- Məruzələr
- Əməli yazılar

**Təsviri yazı**larda şagirdlər təbiət, bu və ya digər həyat hadisələrini özünəməxsus tərzdə təsvir edir, bu zaman öyrəndiyi yeni söz və ifadələrdən, cümlə modellərindən istifadə edir. Fikirlərini obrazlı ifadələrdən

istifadə etməklə yazır.

**Hekayə, nağıl və şəkil üzrə yazılar.** Buraya macəra, nağıllar, fantaziya, tarixi hadisələr, sirli hekayələr, elmi xəbərlər aiddir. Şagirdlər filmə tamaşa edib, yaxud başlarına gələn macəra haqqında öz fikirlərini yazırlar.

**Analitik yazılar** ilkin və orta səviyyəli yazı bacarıqları əsasında mətndə səbəb və onun nəticələri, müqayisə və ziddiyyəti, əsas ideya və kiçik detallar haqqında olan yazılardır. Belə yazılarda şagirdlər özünün təhlil xarakterli fikirlərini müxtəlif formalarda (beyin xəritəsi-(Mind Map), qrafik cədvəllər-(Graphic organiser), diaqramlar- (Diagrams) ) ümumiləşdirməklə ifadə edirlər.

**Arqumentli yazı** hər hansı bir müəllifin fikrindən, statistik məlumatdan, sitatlardan istifadə olunmaqla hazırlanmış yazıdır. Belə yazılarda görkəmli şəxslərin kəlamlarından, sitatlardan istifadə edilir.

Yaradıcı yazı strategiyalarını həyata keçirmək üçün müxtəlif texnologiyalar işlədilə bilər:

- Üç əlaqəsiz əşya
- Səhvlərlə yazı
- Cümləni tamamla
- Xarakterlər xəritəsi

**Üç əlaqəsiz əşya** üsulu ilə şagirdlər əlaqəsi olmayan üç əşyanın adını lövhədə yazır və onları bir hekayədə əlaqələndirirlər. Qruplar bir-birlərinə öz yazdıqlarını oxuyur və səhvlərini düzəldirlər. Bu strategiyalar şagirdlərdə düşüncə, qavrama, yaradıcılıq, əlaqələndirmə, müqayisə etmə kimi bacarıqların formalaşmasına imkan yaradır.

**Səhvlərlə yazı** qrammatik bazanı möhkəmləndirən yazı texnologiyalarındandır. Bu üsulda şagirdlər hər hansı bir mətndə verilmiş səhvləri düzəldərək qrammatik biliklərini yada salır və yazı bacarıqlarını inkişaf etdirirlər.

**Cümlə tamamla** texnologiyası ilə şagirdlərin həm mətn haqqında sərbəst tənqidi təfəkkürü, həm də ətrafdakılar haqqında düşüncələri əks olunur.

- Mən indi hiss edirəm ki, ...
- Ən vacib şey odur ki, ...
- Mən o vaxt şənlənirəm ki, ...

**Xarakterlər xəritəsi** (Characterising Map) texnologiyasından istifadə zamanı şagirdlər mətn haqqında bildiklərini diaqramlar üzərində yazırlar.

## 2.2. Şagird nailiyyətlərinin qiymətləndirilməsi

### 2.2.1. Qiymətləndirmənin əsas prinsipləri

Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

- təlimin keyfiyyətinin ölçülməsi və təshih edilməsi yolu ilə bütövlükdə təhsilin inkişafına nail olmaq;
- informasiyadan ("bilik"dən) vasitə kimi istifadə edərək, təhsilalanların bacarıq və vərdişlərinin ölçülməsini həyata keçirmək;
- hər bir şagirdin təlim nəticələri haqqında etibarlı məlumat əldə etmək;
- qiymətləndirmənin nəticələri əsasında təlimin keyfiyyətini yaxşılaşdıra biləcək növbəti addımları müəyyən

etmək;
- şagirdlərə qabiliyyətlərinə uyğun peşə seçməkdə yardım göstərmək;
- şagirdin daha yüksək pillədə təhsil ala bilməsi üçün zəruri kompetensiyalara yiyələnməsini təmin etmək;
- təlim-tərbiyə prosesində baş verə biləcək neqativ halların qarşısını almaq;
- fənn kurikulumlarında və dərsliklərdə mövcud olan problemləri aşkara çıxarmaq;
- nailiyyətlərin qiymətləndirilməsi üzrə beynəlxalq proqramlarda ölkəmizin iştirakını təmin etmək;
- fənn müəlliminin öz fəaliyyətinin qiymətləndirməsi.

Bütün növ qiymətləndirmədə aşağıdakı prinsiplərə əməl edilir:

**Məqsədəuyğunluq.** Bu prinsip ölçülməsi mümkün olan nəyin və hansı məqsədlə qiymətləndiriləcəyinin əvvəlcədən müəyyən edilməsini, buna müvafiq qiymətləndirmə vasitələrinin (açıq, yaxud qapalı tipli test tapşırıqlarının, açıq və ya qapalı suallardan ibarət sorğu vərəqlərinin, situativ tapşırıqların və s.) hazırlanmasını, seçilmiş qiymətləndirmə vasitələrinin gözlənilən keyfiyyətə müvafiqliyinin və etibarlılığının təmin olunmasını (validliyini və relevantlığını) tələb edir.

**Şəffaflıq, dəqiqlik, obyektivilik və ədalətlilik.** Bu prinsiplər qiymətləndirmənin tədris proqramlarına və digər normativ aktlara uyğun, elmi baxımdan mübahisə doğurmayan məlumatlar əsasında, şagirdlər arasında heç bir diskriminasiyaya yol vermədən, qiymətləndirmə meyarlarını əvvəlcədən elan edərək aparılmasını tələb edir.

**İnkişafetdiricilik.** Bu prinsip şagirdlərin idrak qabiliyyətlərinin aşkara çıxarılması və onların tədqiqatçılıq bacarıqlarının ölçülməsi yolu ilə təhsilin şəxsiyyətyönlü, tələbyönlü və səmərəli olmasını təmin edir.

**İnklüzivlik.** Bu prinsip qiymətləndirmə prosesinin həyata keçirilməsi zamanı fiziki məhdudiyyətləri olan şagirdlərin imkanlarının nəzərə alınmasını ehtiva edir.

### 2.2.2. Qiymətləndirmə meyarları

Qiymətləndirmə meyarları məzmun xətlərinin qiymətləndirmə sxemləri (QS) şəklində hazırlanır. Qiymətləndirmə sxemi uyğun məzmun standartlarının hər birinin 4 səviyyə (rubrik) üzrə qiymətləndirmə şkalasından ibarətdir. Qiymətləndirmə şkalası B.Blum taksonomiyasına uyğun idrak fəaliyyəti piramidasının oturacaqdan zirvəsinə doğru şagirdin inkişafını əks etdirir. Şkalada I və II səviyyə orta idrak fəaliyyəti nümayiş etdirən şagirdlər, III və xüsusilə IV səviyyə isə daha yüksək idrak fəaliyyəti nümayiş etdirən şagirdlər nəzərdə tutulur:

**X sinif üzrə**

| **1. Dinləyib-anlama və danışma.** | |
|---|---|
| **Məzmun standartları** | **Qiymətləndirmə (səviyyələr üzrə)** |
| **1.1. Dinlədiyi fikri dəyərləndirir.** | **1.1.QS1. Dinlədiyi fikri dəyərləndirməsinə dair qiymətləndirmə sxemi** |
| 1.1.1. Mövzu ilə bağlı dinlədiyi fikirləri ümumiləşdirir. | 1.1.1.IV. Mövzu ilə bağlı dinlədiyi fikirləri ümumiləşdirir.<br>1.1.1.III. Mövzu ilə bağlı səslənən fikirləri vacibliyinə görə qruplaşdırır.<br>1.1.1.II. Mövzu ilə bağlı səslənən fikirləri əsas və yardımçı olmaqla fərqləndirir.<br>1.1.1.I. Mövzu ilə bağlı səslənən fikirləri qeyd edir. |

| | |
|---|---|
| 1.1.2. Tərəflərin mövzu üzrə mövqelərinə adekvat reaksiya verir. | 1.1.2.IV. Tərəflərin mövzu üzrə mövqelərinə adekvat reaksiya verir<br>1.1.2.III. Mövzu ilə bağlı səslənən fikirlərdəki müxtəlif yanaşmalara münasibət bildirir<br>1.1.2.II. Dinlədiyi informasiyadakı faktlarla bağlı suallar tərtib edir.<br>1.1.2.I. Tərəflərin mövzu üzrə mövqelərini müəyyənləşdirir. |
| 1.1.3. Müzakirə zamanı yaranan mürəkkəb məqamlara aydınlıq gətirir. | 1.1.3.IV. Müzakirə zamanı yaranan mürəkkəb məqamları dəyərləndirir.<br>1.1.3.III. Mürəkkəb məqamı yaradan problemi analiz edir.<br>1.1.3.II. Müzakirə zamanı irəli sürülən ideyalardakı mürəkkəb məqamları şərh edir.<br>1.1.3.I. Müzakirə zamanı irəli sürülən əsas fikri müəyyənləşdirir. |
| 1.1.4. Dinlədiyi məlumatlarda əsas məqamlarla bağlı qeydlər götürür. | 1.1.4.IV. Dinlədiyi məlumatlarda fikirləri ümumiləşdirir<br>1.1.4.III. Dinlədiyi məlumatlardakı fikirləri açıq məqamlarına görə qruplaşdırır<br>1.1.4.II. Dinlədiyi məlumatlarda fikirlərini dəstəkləyən iddiaları fərqləndirir<br>1.1.4.I. Dinlədiyi məlumatlarda irəli sürülən iddiaları müəyyənləşdirir. |
| **1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.** | **1.2.QS2. Şifahi nitq bacarıqları nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 1.2.1. Təqdimat zamanı qrafik informasiyanı rabitəli mətn şəklində təqdim edir. | 1.2.1.IV. Qrafik informasiyada təqdim olunmuş məlumatı dinləyiciyə düzgün şəkildə ötürür.<br>1.2.1.III. Qrafik informasiyada təqdim olunmuş məlumatı şərh edir.<br>1.2.1.II. Qrafik informasiyada təqdim olunmuş məlumatı ümumiləşdirir.<br>1.2.1.I. Qrafik informasiyada əsas məlumatı müəyyənləşdirir. |
| 1.2.2. Nitqini təsirli etmək üçün müvafiq ifadələrdən və sintaktik konstruksiyalardan istifadə edir. | 1.2.2.IV. Nitqini təsirli edən dil vasitələrindən və sintaktik konstruksiyalardan istifadə edir.<br>1.2.2.III. Nitqini təsirli edən dil vasitələrini və sintaktik konstruksiyaları müəyyənləşdirir.<br>1.2.2.II. Mövzuya uyğun olaraq dil vasitələrini və sintaktik konstruksiyaları müəyyənləşdirir.<br>1.2.2.I. Auditoriyanı nəzərə alaraq nitqinin məzmunu müəyyənləşdirir. |
| 1.2.3. Müzakirələrdə arqument gətirməklə şəxsi fikrini əsaslandırır. | 1.2.3.IV. Şəxsi fikirlərini əsaslandırmaq üçün topladığı arqumentlərdən düzgün istifadə edir.<br>1.2.3.III. Şəxsi fikirlərini əsaslandırmaq üçün gətirdiyi arqumentləri şərh edir.<br>1.2.3.II. Şəxsi fikirlərini əsaslandırmaq üçün topladığı arqumentləri ümumiləşdirir.<br>1.2.3.I. Şəxsi fikirlərini əsaslandırmaq üçün arqument toplayır. |
| 1.2.4. Müxtəlif mövzuların müzakirəsinə hazırlıqsız qoşularaq mövqeyini bildirir. | 1.2.4.IV. Hazırlıqsız qoşulduğu müzakirələrdə mövzuya mövqeyini nümayiş etdirir.<br>1.2.4.III. Topladığı məlumatdan istifadə etməklə mövzuya münasibət bildirir.<br>1.2.4.II. Mövzunu dinləyərkən topladığı məlumatları ümumiləşdirir.<br>1.2.4.I. Hazırlıqsız qoşulduğu müzakirələrdə mövzunu dinləyərkən məlumat toplayır. |
| 1.2.5. Nitqində orfoepik tələblərə riayət edir. | 1.2.5.IV. Savadlı şifahi nitq bacarığı nümayiş etdirərək orfoepik tələblərə riayət edir<br>1.2.5.III. Səs tonundan düzgün istifadə edir.<br>1.2.5.II. Cümlələrdə intonasiyaya riayət edir.<br>1.2.5.I. Sözləri düzgün tələffüz edir. |
| 1.2.6. Sual tərtib etmək bacarığı nümayiş etdirir. | 1.2.6.IV. Dinlədiyi informasiyada faktoloji məlumatlarla bağlı ətraflı informasiya almaq üçün düzgün və dəqiq suallar tərtib edir .<br>1.2.6.III. Dinlədiyi informasiyada məntiqi əlaqəni müəyyənləşdirmək üçün suallar tərtib edir.<br>1.2.6.II. Dinlədiyi informasiyada vacib məlumatları dəqiqləşdirmək üçün suallar tərtib edir.<br>1.2.6.I. Dinlədiyi informasiyada faktoloji məlumatları müəyyənləşdirmək üçün suallar tərtib edir. |

| 2. Oxu | |
|---|---|
| **2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.** | **2.1.QS3. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 2.1.1. Mətnin (cümlənin) təsir gücünü artıran söz və ifadələri dəyərlərləndirir. | 2.1.1.IV. Mətnin təsir gücünü artıran söz və ifadələri dəyərləndirir.<br>2.1.1.III. Mətndə işlənmiş söz və ifadələrin üslubi xüsusiyyətlərini müəyyənləşdirir.<br>2.1.1.II. Üsluba uyğun söz və ifadələri mətnə əlavə edir.<br>2.1.1.I. Üsluba uyğun söz və ifadələri müəyyənləşdirir. |
| 2.1.2. Müxtəlif üslublu mətnlərdə işlənmiş nitq fiqurlarının rolunu izah edir. | 2.1.2.IV. Müxtəlif üslublu işlənmiş nitq fiqurlarının rolunu izah edir.<br>2.1.2.III. Mətndə işlənmiş nitq fiqurlarının üslubi xüsusiyyətlərini müəyyənləşdirir.<br>2.1.2.II. Mətndəki nitq fiqurlarının mənasını izah edir.<br>2.1.2.I. Mətndəki nitq fiqurlarını müəyyənləşdirir. |
| 2.1.3. Söz və ifadələrin mənasını kontekstdən çıxış edərək şərh edir. | 2.1.3.IV. Mətndəki söz və ifadələrin mənasını kontekstə uyğun şərh edir.<br>2.1.3.III. Mətndəki söz və ifadələrin mənasını kontekstə uyğun müəyyənləşdirir.<br>2.1.3.II. Mətndəki çətin anlaşılan sözlərin lüğəvi mənasını izah edir.<br>2.1.3.I. Mətndəki çətin anlaşılan sözləri müəyyənləşdirir. |
| 2.1.4. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəciklərin mənasından çıxış edərək sözü izah edir (teleqram, telefon, avtoqraf, teleqraf, fotoqraf və s.). | 2.1.4.IV. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli sözlərin mənasından çıxış edərək sözü izah edir.<br>2.1.4.III. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəciklərinin funksiyasını dəyərləndirir.<br>2.1.4.II. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəciklərin mənasını izah edir.<br>2.1.4.I. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəcikləri müəyyənləşdirir. |
| 2.1.5. Sözün leksikoqrafik izahını verir. | 2.1.5.IV. Sözün leksikoqrafik mənasını tərif şəklində ifadə edir.<br>2.1.5.III. Sözün leksikoqrafik mənasını anlaşıqlı şəkildə ifadə edir.<br>2.1.5.II. Sözün leksikoqrafik mənasını şərh edir.<br>2.1.5.I. Sözün leksikoqrafik mənasını müəyyənləşdirir. |
| **2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.** | **2.2.QS4 Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 2.2.1. Mətndəki hadisələrdə məntiqi əlaqələri əsaslandırır. | 2.2.1.IV. Mətndəki hadisələrdə səbəb-nəticə əlaqələrini dəyərləndirir.<br>2.2.1.III. Bir-bir ilə məntiqi əlaqəsi olan hadisələri təhlil edir.<br>2.2.1.II. Faktları əsas və yardımçı olmaqla qruplaşdırır.<br>2.2.1.I. Mətndəki faktları müəyyənləşdirir. |
| 2.2.2. Mətndəki əsas və yardımçı fikirlər arasında əlaqəni qiymətləndirir. | 2.2.2.IV. Mətndəki əsas və yardımçı fikirlər arasındakı əlaqəni qiymətləndirir.<br>2.2.2.III. Mətndən məntiqi nəticələr çıxarır.<br>2.2.2.II. Mətndəki faktoloji informasiyanı əsas və yardımçı olmaqla qruplaşdırır.<br>2.2.2.I. Mətndəki faktoloji informasiyanı müəyyənləşdirir. |
| 2.2.3. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini araşdırır. | 2.2.3.IV. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini dəyərləndirir.<br>2.2.3.III. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini təhlil edir.<br>2.2.3.II. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini izah edir.<br>2.2.3.I. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini müəyyənləşdirir. |

| | |
|---|---|
| 2.2.4. Mətnin struktur elementlərinin məzmunun açılmasındakı rolunu izah edir. | 2.2.4.IV. Mətnin struktur elementlərinin məzmunun açılmasındakı rolunu təhlil edir.<br>2.2.4.III. Mətnə struktur elementləri əlavə edir.<br>2.2.4.II. Mətnin struktur elementlərini izah edir.<br>2.2.4.I. Mətnin struktur elementlərini müəyyənləşdirir. |
| 2.2.5. Mətndəki məlumatlardan istifadə etməklə yeni məlumat(lar) əldə edir. | 2.2.5.IV. Mətndəki məlumatlardan istifadə etməklə yeni nəticələr əldə edir.<br>2.2.5.III. Mətndəki məntiqi əlaqəli məlumatları müəyyənləşdirir.<br>2.2.5.II. Mətndə gizli şəkildə verilmiş informasiyanı müəyyənləşdirir.<br>2.2.5.I. Mətndə açıq şəkildə verilmiş informasiyanı müəyyənləşdirir. |
| **3. Yazı** | |
| **3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.** | **3.1.QS5. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 3.1.1. Mətnin planını tərtib edir. | 3.1.1.IV. Hadisələrin məntiqi ardıcıllığından istifadə edərək sadə plan tərtib edir.<br>3.1.1.III. Hazır mətnə plan tərtib edərkən əsas fikirlərdən istifadə edir.<br>3.1.1.II. Hazır mətnin strukturunu müəyyənləşdirir.<br>3.1.1.I. Hazır mətndəki əsas fikri müəyyənləşdirir. |
| 3.1.2. İnformativ və izahedici mətnlər yazır (təsviri, mühakimə, nəqli, qarışıq). | 3.1.2.IV. Tələbə uyğun müxtəlif izahedici mətnlər tərtib edir.<br>3.1.2.III. Topladığı məlumatları mətniqi ardıcıllıqla qruplaşdırır.<br>3.1.2.II. Topladığı məlumatı yazacağı mətnin tipinə uyğunlaşdırır.<br>3.1.2.I. Mətn tərtib etmək üçün mövzuya uyğun məlumat toplayır. |
| 3.1.3. Fikri əsaslandırmaq üçün arqument gətirir. | 3.1.3.IV. Fikrini əsaslandırmaq üçün uyğun arqumentlər irəli sürür.<br>3.1.3.III. Arqumentləri dəstəkləyən fikirləri müəyyənləşdirir.<br>3.1.3.II. Fikrini əsaslandırmaq üçün gətirdiyi arqumentləri və faktları qruplaşdırır.<br>3.1.3.I. Fikrini əsaslandırmaq üçün səthi arqumentlər gətirir. |
| 3.1.4. Mətni məqsədəuyğun şəkildə təkmilləşdirir. | 3.1.4.IV. Hazır mətni məzmun baxımından təkmilləşdirir.<br>3.1.4.III. Hazır mətni əlavə faktlarla zənginləşdirir.<br>3.1.4.II. Hazır mətnin məzmununa uyğun olmayan məqamları ixtisar edir.<br>3.1.4.I. Hazır mətni təkmilləşdirmək üçün əlavə faktlar toplayır. |
| 3.1.5. Mətn yazarkən durğu işarələri ilə bağlı qaydalara riayət edir. | 3.1.5.IV. Mətn yazarkən durğu işarələrinin yazılışı ilə bağlı qaydalara riayət edir.<br>3.1.5.III. Sadə konstruksiyalı cümlələrdə durğu işarələri qaydalarına riayət edir.<br>3.1.5.II. Əsas və köməkçi nitq hissələri ilə bağlı durğu işarələri qaydalarına riayət edir.<br>3.1.5.I. Əsas nitq hissələri ilə bağlı durğu işarələri qaydalarına riayət edir. |
| 3.1.6. Məqsədə müvafiq olaraq əməli yazılar (ərizə, izahat, tərcümeyi-hal və s.) hazırlayır. | 3.1.6.IV. Müxtəlif əməli yazıları (ərizə, izahat, tərcümeyi-hal və s.) məqsədəuyğun və düzgün tərtib edir.<br>3.1.6.III. Yazdığı ərizə, izahat, tərcümeyi-hal və s. əməli yazıların strukturunu və yazılış formasını müəyyənləşdirir.<br>3.1.6.II. Hazır ərizə, izahat, tərcümeyi-hal və s. əməli yazıları strukturuna və yazılış formasına görə fərqləndirir.<br>3.1.6.I. Ərizə, izahat, tərcümeyi-hal və s. əməli yazıların strukturunu nəzəri olaraq izah edir. |

| | |
|---|---|
| 3.1.7. Hazırladığı mətndə verbal və qeyri-verbal informasiyadan məqsədəuyğun şəkildə istifadə edir (qrafik, cədvəl, sxemlərdən istifadə). | 3.1.7.IV. Hazırlayacağı mətndə sadə verbal və ya qeyri-verbal informasiya arasındakı uyğunluğu təhlil edir.<br>3.1.7.III.Hazırladığı mətndə sadə verbal və qeyri-verbal informasiyadan məqsədəuyğun şəkildə istifadə edir (qrafik, cədvəl, sxemlərdən istifadə)<br>3.1.7.II. Hazırlayacağı mətndə qeyri-verbal informasiyanı sadə verbal informasiya ilə uyğunlaşdırır.<br>3.1.7.I. Hazırlayacağı mətndə informasiyanı verbal və ya qeyri-verbal verəcəyini müəyyənləşdirir. |

| | |
|---|---|
| 3.1.8. Sözlərin düzgün yazılış qaydalarına riayət edir. | 3.1.8.IV. Üslubi cəhətdən sözlərin böyük və ya kiçik hərflə yazılışına riayət edir.<br>3.1.8.III. Mürəkkəb adların düzgün yazılış qaydalarına riayət edir.<br>3.1.8.II. Xüsusi isimlərlə bağlı düzgün yazılış qaydalarına riayət edir.<br>3.1.8.I. Nitq hissələri ilə bağlı sözlərin düzgün yazılış qaydalarını müəyyənləşdirir. |
| **4. Dil qaydaları** | |
| **4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.** | **4.1.QS6. Dil qaydalarını mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 4.1.1 Şifahi və yazılı nitqində ədəbi dilin qrammatik qaydalarına riayət edir. | 4.1.1.IV. Şifahi və yazılı nitqində ədəbi dilin qrammatik qaydalarına əməl edir.<br>4.1.1.III. Nitqin düzgün qurulmasında qrammatik qaydaların rolunu dəyərləndirir.<br>4.1.1.II. Ədəbi dilin qrammatik qaydalarını şərh edir.<br>4.1.1.I. Ədəbi dilin qrammatik qaydalarını sadalayır. |
| 4.1.2. Ədəbi dilin orfoepik normalarına əməl edir. | 4.1.2.IV. Şifahi nitqində ədəbi dilin orfoepik normalarına əməl edir.<br>4.1.2.III. Şifahi nitqin düzgün qurulmasında orfoepik normaların rolunu əsaslandırır<br>4.1.2.II. Ədəbi dilin orfoepik qaydalarını izah edir.<br>4.1.2.I. Ədəbi dilin orfoepik normalarının tələblərini müəyyənləşdirir. |
| 4.1.3. Sözlərin leksik-semantik xüsusiyyətlərindən çıxış edərək ədəbi dilin norma (leksik) və üslublarının tələblərinə riayət edir. | 4.1.3.IV. Sözlərin leksik-semantik xüsusiyyətlərini dəyərləndirməklə nitqində ədəbi dilin leksik norma və üslublarının tələblərinə riayət edir.<br>4.1.3.III. Sözü kontekstə uyğun düzgün və yerində işlədir.<br>4.1.3.II. Sözün leksik-semantik xüsusiyyətlərini izah edir.<br>4.1.3.I. Sözlərin leksik-semantik xüsusiyyətləri müəyyənləşdirir. |
| 4.1.4. Ədəbi dilin orfoqrafik normalarına əməl edir. | 4.1.4.IV. Yazılı nitqində ədəbi dilin orfoqrafik normalarına əməl edir.<br>4.1.4.III. Yazılı nitqin düzgün qurulmasında orfoqrafik normaların rolunu əsaslandırır.<br>4.1.4.II. Ədəbi dilin orfoqrafik qaydalarını izah edir.<br>4.1.4.I. Ədəbi dilin orfoqrafik normalarının tələblərini müəyyənləşdirir. |

**XI sinif üzrə**

| **1. Dinləyib-anlama və danışma.** | |
|---|---|
| **Məzmun standartları** | **Qiymətləndirmə (səviyyələr üzrə)** |
| **1.1. Dinlədiyi fikri dəyərləndirir.** | **1.1.QS1. Dinlədiyi fikri dəyərləndirməsinə dair qiymətləndirmə sxemi.** |
| 1.1.1. Mövzu ilə bağlı dinlədiyi fikirləri ümumiləşdirir. | 1.1.1.IV. Mövzu ilə bağlı qruplaşdırdığı fikirləri ümumiləşdirir.<br>1.1.1.III. Əsas fikirlərin açılmasına xidmət edən yardımçı fikirləri qruplaşdırır.<br>1.1.1.II. Əsas fikirlərlə yardımçı fikir arasındakı məntiqi əlaqəni müəyyənləşdirir<br>1.1.1.I. Mövzu ilə bağlı səslənən əsas fikirləri müəyyənləşdirir. |

| | |
|---|---|
| 1.1.2. Tərəflərin mövzu üzrə mövqelərinə adekvat reaksiya verir. | 1.1.2.IV. Tərəflərin mövqeyinə münasibət bildirərkən fikirlərini əsaslandırır.<br>1.1.2.III. Tərəfdaşlarının mövqeyini mühakimə edir.<br>1.1.2.II. Səslənən fikirləri dəqiqləşdirmək üçün müəyyən suallar verir.<br>1.1.2.I. Tərəflərin mövzu üzrə yanaşmalarındakı yaxın və fərqli məqamları müəyyənləşdirir. |
| 1.1.3. Müzakirə zamanı yaranan mürəkkəb məqamlara aydınlıq gətirir. | 1.1.3.IV. Mürəkkəb məqamı yaradan problemi dəyərləndirməklə başqasının fikirlərini müdafiə edir.<br>1.1.3.III. Mürəkkəb məqamı yaradan problemin həlli yolunu göstərməklə mövqeyini nümayiş etdirir.<br>1.1.3.II. Mürəkkəb məqamlara münasibət bildirir.<br>1.1.3.I. Müzakirə zamanı yaranan mürəkkəb məqamları müəyyənləşdirir. |
| 1.1.4. Dinlədiyi məlumatlarda əsas məqamlarla bağlı qeydlər götürür. | 1.1.4.IV. Dinlədiyi məlumatlarda əsas məqamlarla bağlı qeydlər götürür.<br>1.1.4.III. Dinlədiyi məlumatlardakı fikirləri vacibliyinə görə qruplaşdırır.<br>1.1.4.II. Dinlədiyi məlumatlarda əsas və yardımçı fikirləri fərqləndirir.<br>1.1.4.I. Dinlədiyi məlumatlarda əsas məqamları müəyyənləşdirir. |
| **1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.** | **1.2.QS2. Şifahi nitq bacarıqları nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 1.2.1. Təqdimat zamanı qrafik informasiyanı rabitəli mətn şəklində təqdim edir. | 11.2.1.IV. Qrafik informasiyada təqdim olunmuş ideyanı dinləyiciyə düzgün şəkildə ötürür.<br>11.2.1.III.Qrafik informasiyada əsas fikri dəstəkləyən detalları izah edir.<br>11.2.1.II.Qrafik informasiyada əsas fikri dəstəkləyən detalları ümumiləşdirir.<br>1.2.1.I.Qrafik informasiyada əsas fikri dəstəkləyən detalları müəyyənləşdirir |
| 1.2.2. Nitqini təsirli etmək üçün müvafiq ifadələrdən və sintaktik konstruksiyalardan istifadə edir. | 1.2.2.IV. Üsluba uyğun olaraq nitqini təsirli edən dil vasitələrindən və sintaktik konstruksiyalardan məqsədyönlü istifadə edir.<br>1.2.2.III. Üsluba uyğun olaraq nitqini təsirli edən dil vasitələrini və sintaktik konstruksiyaları müəyyənləşdirir.<br>1.2.2.II. Üsluba uyğun olaraq dil vasitələri və sintaktik konstruksiyaları interpretasiya edir.<br>1.2.2.I. Auditoriyanı nəzərə alaraq nitqinin üslubunu müəyyənləşdirir. |
| 1.2.3. Müzakirələrdə arqument gətirməklə şəxsi fikrini əsaslandırır. | 1.2.3.IV. Şəxsi fikirlərini əsaslandırmaq üçün bədii, informativ və ya elmi-kütləvi mətnlərdən topladığı arqumentləridən düzgün istifadə edir.<br>1.2.3.III. Şəxsi fikirlərini əsaslandırmaq üçün bədii, informativ və ya elmi-kütləvi mətnlərdən gətirdiyi arqumentləri şərh edir.<br>1.2.3.II. Şəxsi fikirlərini əsaslandırmaq üçün bədii, informativ və ya elmi-kütləvi mətnlərdən topladığı arqumentləri ümumiləşdirir.<br>1.2.3.I. Şəxsi fikirlərini əsaslandırmaq üçün bədii, informativ və ya elmi-kütləvi mətnlərdən arqument toplayır. |
| 1.2.4. Müxtəlif mövzuların müzakirəsinə hazırlıqsız qoşularaq mövqeyini bildirir. | 1.2.4.IV. Hazırlıqsız qoşulduğu müzakirələrdə tanış olmadığı mövzuda mövqeyini nümayiş etdirir.<br>1.2.4.III. Topladığı məlumatdan istifadə etməklə tanış olmadığı mövzuya münasibət bildirir.<br>1.2.4.II. Tanış olmadığı mövzunu dinləyərkən topladığı məlumatları ümumiləşdirir.<br>1.2.4.I. Tanış olmadığı mövzunu dinləyərkən məlumat toplayır |
| 1.2.5. Nitqində orfoepik tələblərə riayət edir. | 1.2.5.IV. Savadlı şifahi nitq bacarığı nümayiş etdirərək orfoepik tələblərə riayət edir.<br>1.2.5.III. Auditoriyaya təsir etmək üçün inandırma, güzəştə getmək, münaqişələrin idarə olunması kimi effektiv ünsiyyət üsulları və strategiyalardan istifadə edir.<br>1.2.5.II. Müxtəlif məqamlarda informasiyanı düzgün ötürmək üçün cümlələrdə intonasiyaya riayət edir.<br>1.2.5.I. Sözləri düzgün tələffüz edir. |

| | |
|---|---|
| 1.2.6. Sual tərtib etmək bacarığı nümayiş etdirir. | 1.2.6.IV. Dinlədiyi informasiyada aydın olmayan məqamlarla bağlı ətraflı məlumat almaq üçün düzgün və dəqiq suallar tərtib edir .<br>1.2.6.III. Dinlədiyi məlumatda sətiraltı informasiyanı dəqiqləşdirmək üçün suallar tərtib edir.<br>1.2.6.II. Dinlədiyi informasiyanın məzmununu dəqiqləşdirmək üçün suallar tərtib edir.<br>1.2.6.I. Dinlədiyi informasiyada aydın olmayan məqamları müəyyənləşdirmək üçün suallar tərtib edir. |
| **2. Oxu** | |
| **2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.** | **2.1.QS3. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 2.1.1. Mətnin (cümlənin) təsir gücünü artıran söz və ifadələri dəyərləndirir | 2.1.1.IV. Müəllifin məqsəd və mövqeyini müəyyənləşdirmək üçün işlədilən söz və ifadələri dəyərləndirir.<br>2.1.1.III. Söz və ifadələrin müəllif mövqeyinin müəyyənləşdirilməsində rolunu əsasalandırır.<br>2.1.1.II. Müəllifin məqsəd və mövqeyini göstərən söz və ifadələri şərh edir.<br>2.1.1.I. Müəllifin məqsəd və mövqeyini göstərən söz və ifadələri müəyyənləşdirir. |
| 2.1.2. Müxtəlif üslublu mətnlərdə işlənmiş nitq fiqurlarının rolunu izah edir. | 2.1.2.IV. Müxtəlif üslublu mətnlərdə işlənmiş nitq fiqurlarının rolunu dəyərləndirir.<br>2.1.2.III. Mətndə işlənmiş nitq fiqurlarının üsluba uyğunluğunu şərh edir.<br>2.1.2.II. Mətndəki nitq fiqurlarını rolunu izah edir.<br>2.1.2.I. Mətndəki nitq fiqurlarının funksiyasını müəyyənləşdirir. |
| 2.1.3. Söz və ifadələrin mənasını kontekstdən çıxış edərək şərh edir. | 2.1.3.IV. Mətndəki terminlərin, alınma sözlərin mənasını kontekstə uyğun şərh edir.<br>2.1.3.III. Mətndəki söz və frazeoloji birləşmələri kontekstdən çıxış edərək izah edir.<br>2.1.3.II. Mətnin anlaşılmasında çətinlik yaradan sözlərin lüğəvi mənasını izah edir.<br>2.1.3.I. Mətnin anlaşılmasında çətinlik yaradan sözlərin lüğəvi mənasını izah edir. |
| 2.1.4. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəciklərin mənasından çıxış edərək sözü izah edir. (meqabayt, meqavatt hiperaktiv, hipertoniya və s.) | 2.1.4.IV. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli sözlərin mənasından çıxış edərək sözü izah edir.<br>2.1.4.III. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəciklərin yaratdığı sözdə funksiyasını dəyərləndirir.<br>2.1.4.II. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəciklərin mənasını izah edir.<br>2.1.4.I. Alınma sözlərin tərkibində tez-tez rast gəlinən latın və yunan mənşəli hissəcikləri müəyyənləşdirir. |
| 2.1.5. Sözün leksikoqrafik izahını verir. | 2.1.1.IV. Müəllifin məqsəd və mövqeyini müəyyənləşdirmək üçün işlədilən söz və ifadələri dəyərləndirir.<br>2.1.1.III. Söz və ifadələrin müəllif mövqeyinin müəyyənləşdirilməsində rolunu əsasalandırır.<br>2.1.5.II. İfadələrin leksikoqrafik mənasını şərh edir.<br>2.1.5.I. Terminlərin leksikoqrafik mənasını müəyyənləşdirir. |
| **2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.** | **2.2. QS4. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |

| | |
|---|---|
| 2.2.1. Mətndəki hadisələrdə məntiqi əlaqələri əsaslandırır. | 2.2.1.IV. Mətndəki hadisələrdə problem-qərar, məqsəd-nəticə əlaqələrini dəyərləndirir.<br>2.2.1.III. Səbəb-nəticə əlaqəli hadisələri təhlil edir.<br>2.2.1.II. Məlumatları əsas və yardımçı olmaqla qruplaşdırır.<br>2.2.1.I. Mətndəki məlumatları müəyyənləşdirir. |
| 2.2.2. Mətndəki əsas və yardımçı fikirlər arasında əlaqəni qiymətləndirir. | 2.2.2.IV. Mətndəki əsas və yardımçı fikirlər arasındakı əlaqəni dəyərləndirir.<br>2.2.2.III. Mətndəki fikirlər arasında keçid cümlələri müəyyənləşdirir.<br>2.2.2.II. Mətndə açıq və gizli şəkildə verilmiş informasiyanı əsas və yardımçı olmaqla qruplaşdırır.<br>2.2.2.I. Mətndə açıq şəkildə verilmiş fikri müəyyənləşdirir. |
| 2.2.3. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini araşdırır. | 2.2.3.IV. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərini üsluba uyğunluğunu dəyərləndirir.<br>2.2.3.III. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərinin üsluba uyğunluğunu təhlil edir.<br>2.2.3.II. Müəllifin mətndə istifadə etdiyi dil xüsusiyyətlərinin üsluba uyğunluğunu izah edir.<br>2.2.3.I. Müəllifin mətndə üsluba uyğun istifadə etdiyi dil xüsusiyyətlərini müəyyənləşdirir. |
| 2.2.4. Mətnin struktur elementlərinin məzmunun açılmasındakı rolunu izah edir. | 2.2.4.IV. Mətnin struktur elementlərinin bir-biri ilə əlaqəsini dəyərləndirir.<br>2.2.4.III. Mətnə verbal informasiyanı müşayiət edən qeyri-verbal elementlər əlavə edir.<br>2.2.4.II. Mətndəki qeyri-verbal şəkildə verilmiş informasiyanın elementlərini izah edir.<br>2.2.4.I. Mətndəki qeyri-verbal şəkildə verilmiş informasiyanın elementlərini müəyyənləşdirir. |
| 2.2.5. Mətndəki məlumatlardan istifadə etməklə yeni məlumat(lar) əldə edir. | 2.2.5.IV. Mətndə məntiqi nəticəyə əsaslanan informasiyanı dəyərləndirir.<br>2.2.5.III. Mətndə məntiqi nəticəyə əsaslanan informasiyanı təhlil edir.<br>2.2.5.II. Mətndə məntiqi nəticəyə əsaslanan informasiyanı müəyyənləşdirir.<br>2.2.5.I. Mətndə bir-biri ilə əlaqəli olan informasiyaları müəyyənləşdirir. |
| **3. Yazı** | |
| **3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.** | **3.1.QS5. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 3.1.1. Mətnin planını tərtib edir. | 3.1.1.IV. Hazırlayacağı mətnin mürəkkəb planını tərtib edir.<br>3.1.1.III. Hazırlayacağı mətnin tərkib hissələrindəki hadisələrin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>3.1.1.II. Hazırlayacağı mətnin xarakterini müəyyənləşdirir.<br>3.1.1.I. Hazırlayacağı mətndə əsas fikri müəyyənləşdirir. |
| 3.1.2. İnformativ və izahedici mətnlər yazır (təsviri, mühakimə, nəqli, qarışıq). | 3.1.2.IV. Müxtəlif informativ mətnlər tərtib edir.<br>3.1.2.III. Topladığı məlumatları mətnin strukturuna uyğun qruplaşdırır.<br>3.1.2.II. Topladığı məlumatı yazacağı üsluba uyğunlaşdırır.<br>3.1.2.I. Mövzuya uyğun məlumat toplayır. |
| 3.1.3. Fikri əsaslandırmaq üçün arqument gətirir. | 3.1.3.IV. Fikri dəstəkləyən əsaslı arqumentlərdən istifadə edir.<br>3.1.3.III. Arqumentlərin əsaslı və ya əsassız olduğunu müəyyənləşdirir.<br>3.1.3.II. Fikri təsdiq və ya təkzib edən arqumentlər müəyyənləşdirir.<br>3.1.3.I. Fikri əsaslandırmaq üçün az arqument gətirir. |

| | |
|---|---|
| 3.1.4. Mətni məqsədəuyğun şəkildə təkmilləşdirir. | 3.1.4.IV. Yazdığı mətni üslubi baxımdan leksik cəhətdən redaktə edir.<br>3.1.4.III. Yazdığı mətni məzmun və üsluba uyğun əlavə faktlarla zənginləşdirir.<br>3.1.4.II. Yazdığı mətnin üslubuna uyğun olmayan məqamları ixtisar edir.<br>3.1.4.I. Məqsədinə uyğun olaraq yazdığı mətnin üslubunu müəyyənləşdirir. |
| 3.1.5. Mətn yazarkən durğu işarələri ilə bağlı qaydalara riayət edir. | 3.1.5.IV. Yazdığı mətndə məqsəd və mövqeyinə uyğun olaraq durğu işarələrindən istifadə edir.<br>3.1.5.III. Mürəkkəb konstruksiyalı cümlələrdə durğu işarələri qaydalarına riayət edir.<br>3.1.5.II. Müxtəlif şəkildə (nəzm, nəsr) ifadə olunmuş mətnlərdə durğu işarələri qaydalarına riayət edir.<br>3.1.5.I. Sadə konstruksiyalı cümlələrdə durğu işarələri qaydalarına riayət edir. |
| 3.1.6. Məqsədə müvafiq olaraq əməli yazılar (press-reliz, rəy, CV və s.) hazırlayır. | 3.1.6.IV. Müxtəlif əməli yazıları (press-reliz, rəy, CV və s.) fərqli şəkildə hazırlayır.<br>3.1.6.III. Müxtəlif əməli yazılar (press-reliz, rəy, CV və s.) əməli yazılar yazır.<br>3.1.6.II. Hazır yazılmış press-reliz, rəy, CV və s.əməli yazıların strukturunu və yazılış formasını müəyyənləşdirir.<br>3.1.6.I. Press-reliz, rəy, CV və s. əməli yazıların tərtibat formasını nəzəri olaraq izah edir. |
| 3.1.7. Hazırladığı mətndə verbal və qeyri-verbal informasiyadan məqsədəuyğun şəkildə istifadə edir (qrafik, cədvəl, sxemlərdən istifadə). | 3.1.7.IV. Hazırlayacağı müxtəlif üslublu və mürəkkəb quruluşlu mətnlərdə verbal və ya qeyri-verbal informasiya arasındakı uyğunluğu təhlil edir.<br>3.1.7.III. Hazırladığı müxtəlif üslublu və mürəkkəb quruluşlu mətnlərdə verbal və qeyri-verbal informasiyadan məqsədəuyğun şəkildə istifadə edir (qrafik, cədvəl, sxemlərdən istifadə)<br>3.1.7.II. Hazırlayacağı müxtəlif üslublu mətnlərdə qeyri-verbal informasiyanı mürəkkəb verbal informasiya ilə uyğunlaşdırır.<br>3.1.7.I. Hazırlayacağı müxtəlif üslublu mətnlərdə informasiyanın verbal və ya qeyri-verbal şəkildə verəcəyini müəyyənləşdirir. |
| 3.1.8. Sözlərin düzgün yazılış qaydalarına riayət edir. | 3.1.8.IV. Yazılı nitqində orfoqrafik qaydalara düzgün riayət edir.<br>3.1.8.III. Əsas və köməkçi nitq hissələri ilə bağlı sözlərin düzgün yazılış qaydalarına riayət edir.<br>3.1.8.II. Əsas nitq hissələri ilə bağlı sözlərin düzgün yazılış qaydalarına riayət edir.<br>3.1.8.I. Əsas və köməkçi nitq hissələri ilə bağlı sözlərin düzgün yazılış qaydalarını müəyyənləşdirir. |
| **4. Dil qaydaları** | |
| **4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.** | **4.1.QS6. Dil qaydalarını mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 4.1.1. Şifahi və yazılı nitqində ədəbi dilin qrammatik qaydalarına riayət edir. | 4.1.1.IV. Şifahi və yazılı nitqində ədəbi dilin qrammatik qaydalarına əməl edir.<br>4.1.1.III. Nitqin düzgün qurulmasında qrammatik qaydaların rolunu dəyərləndirir<br>4.1.1.II. Ədəbi dilin qrammatik qaydalarını şərh edir.<br>4.1.1.I. Ədəbi dilin qrammatik qaydalarını sadalayır. |
| 4.1.2. Ədəbi dilin orfoepik normalarına əməl edir. | 4.1.2.IV. Şifahi nitqində ədəbi dilin orfoepik normalarına əməl edir.<br>4.1.2.III. Şifahi nitqin düzgün qurulmasında orfoepik normaların rolunu əsaslandırır.<br>4.1.2.II. Ədəbi dilin orfoepik qaydalarını izah edir.<br>4.1.2.I. Ədəbi dilin orfoepik normalarının tələblərini müəyyənləşdirir. |

| | |
|---|---|
| 4.1.3. Sözlərin leksik-semantik xüsusiyyətlərindən çıxış edərək ədəbi dilin norma (leksik) və üslublarının tələblərinə riayət edir. | 4.1.3.IV. Sözlərin leksik-semantik xüsusiyyətlərini dəyərləndirməklə nitqində ədəbi dilin leksik norma və üslublarının tələblərinə riayət edir.<br>4.1.3.III. Sözü kontekstə uyğun düzgün və yerində işlədir.<br>4.1.3.II. Sözün leksik-semantik xüsusiyyətlərini izah edir.<br>4.1.3.I. Sözlərin leksik-semantik xüsusiyyətlərini müəyyənləşdirir. |
| 4.1.4. Ədəbi dilin orfoqrafik normalarına əməl edir. | 4.1.4.IV. Yazılı nitqində ədəbi dilin orfoqrafik normalarına əməl edir.<br>4.1.4.III. Yazılı nitqin düzgün qurulmasında orfoqrafik normaların rolunu əsaslandırır.<br>4.1.4.II. Ədəbi dilin orfoqrafik qaydalarını izah edir.<br>4.1.4.I. Ədəbi dilin orfoqrafik normalarının tələblərini müəyyənləşdirir. |

# III. Resurslar



### 3.1. Azərbaycan dili kabinetinin minimum tələblərə uyğun təchizatı

| Sıra № | Resursun və maddi-texniki vasitələrin adı | Təyinatı |
|---|---|---|
| **I Kitabxana fondu (kağız daşıyıcı resurslar)** | | |
| 1.1 | "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu | Müəllim |
| 1.2 | Abdullayev N. Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2013 | Müəllim və şagird |
| 1.3 | Azərbaycan dilinin izahlı lüğəti (4 cilddə). Bakı, 2011 | Müəllim və şagird |
| 1.4 | Orfoqrafiya lüğəti. Bakı, 2021 | Müəllim və şagird |
| 1.5 | Məktəblinin orfoepiya lüğəti. Bakı, 2018 | Müəllim və şagird |
| 1.6 | Frazeologiya lüğəti. Bakı, 2015 | Müəllim və şagird |
| 1.7 | Sinonimlər lüğəti. Bakı, 2007 | Müəllim və şagird |
| 1.8 | Etimologiya lüğəti. Bakı, 2015 | Müəllim və şagird |
| 1.9 | Dilçilik və ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, 2016 | Müəllim və şagird |
| 1.10 | Fəal təlim. Təlimatçılar və müəllimlər üçün vəsait. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Təhsilin İnkişafı Mərkəzi, Bakı, Altun nəşr, 2003. | Müəllim |
| 1.11 | İnteraktiv təlim ensiklopediyası. Müəllimlər üçün tədris vəsaiti/ tərcümə və redaktə K.R.Quliyeva. Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi. Bakı, 2010. | Müəllim |
| 1.12 | Yeni təlim texnologiyaları və müasir dərs. Dərs vəsaiti/ Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialı; tərt. A.H.Dəmirov; elmi red. N.R.Manafov. – Mingəçevir: Mingəçevir Poliqrafiya Müəssisəsi MMC, 2007 | Müəllim |
| 1.13 | İfadəli oxu üçün müxtəlif mətnlər (bədii ədəbiyyat və s.) | Müəllim və şagird |
| 1.14 | Arıcı, A. F. Okuma Eğitimi. İstanbul: 3F Yayıncılık. 2008 | Müəllim |
| 1.15 | Orta Öğretim Türk Dili Ve Edebiyatı Dersi Öğretim Programı (9-12. Sınıflar). T.C. Milli Eğitim Bakanlığı, Ankara, 2018 | Müəllim |
| 1.16 | Özbay, M. Bir Dil Becerisi Olarak Dinleme Eğitimi. Ankara: Akçağ Yayınları. 2005 | Müəllim |
| 1.17 | Özdemir, E. Eleştirel Okuma (7. Baskı). Ankara: Bilgi Yayınevi. 2007 | Müəllim |
| 1.18 | Azərbaycan dili ilə bağlı müxtəlif test və digər tapşırıq vəsaitləri | Müəllim və şagird |
| **II Çap posterləri** | | |
| 2.1 | Əlifba | Ümumi istifadə üçün |
| 2.2 | Türk dilləri ağacı | Ümumi istifadə üçün |
| 2.3 | Dünya dillərinin və türk dillərinin xəritələri | Ümumi istifadə üçün |
| 2.4 | Dilçiliyə dair sxemlər (dilçiliyin müxtəlif şöbələri – fonetika, leksikologiya, söz yaradıcılığı, qrammatika və s. aid) | Ümumi istifadə üçün |

| | | |
|---|---|---|
| **III Elektron vəsaitlər və İKT avadanlığı** | | |
| 3.1 | Azərbaycan dili kursunun əsas bölmələri üzrə multimedia tədris proqramları və elektron tədris nəşrləri | Ümumi istifadə üçün |

| | | |
|---|---|---|
| 3.2 | Frontal və fərdi işlərin təşkili üçün müxtəlif səviyyəli tematik və yekun təlim və yoxlama materiallarının yaradılması üçün elektron məlumat bazası | Ümumi istifadə üçün |
| 3.3 | Dil tarixi və dilçiliklə bağlı məlumatları özündə əks etdirən videofilmlər | Ümumi istifadə üçün |
| 3.4 | Audio mətnlər | Ümumi istifadə üçün |
| 3.5 | Səsgücləndirici | Ümumi istifadə üçün |
| 3.6 | Multimedia kompüteri | Ümumi istifadə üçün |
| 3.7 | Skaner | Ümumi istifadə üçün |
| 3.8 | Printer | Ümumi istifadə üçün |
| 3.9 | Surətçıxaran | Ümumi istifadə üçün |
| 3.10 | Multiproyektor | Ümumi istifadə üçün |
| 3.11 | Telekommunikasiya vasitələri | Ümumi istifadə üçün |
| 3.12 | Elektron lövhə | Ümumi istifadə üçün |
| 3.13 | Azərbaycan dilinə və dilçiliyə aid digər elektron resurslar | Ümumi istifadə üçün |
| 3.14 | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” | Müəllim |
| 3.15 | Təmayül sinifləri üçün Azərbaycan dili fənni üzrə kurikulum | Müəllim |

# IV. Tezaurus



**Altstandart** -əsas standartda ifadə olunmuş fikrin müəyyən hissəsidir.

**Azərbaycan dili fənninin tədris vahidi** - dərslikdəki mövzuların tematik qrupudur.

**Dərslik** - dövlət təhsil standartları əsasında hazırlanmış kurikulumlara uyğun olan, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərinin aşılanmasına, demokratik dünyagörüşünün formalaşmasına imkan yaradan, onları düşünməyə sövq edən, məntiqi təfəkkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətə malik əsas dərs vəsaitidir.

**Dəyərlər** - şəxsiyyəti şərtləndirən keyfiyyətdir.

**Diaqnostik qiymətləndirmə** - şagirdlərin güclü və zəif cəhətlərini, bilik və bacarıqlarının mövcud vəziyyətini müəyyənləşdirməyə imkan verən ilkin qiymətləndirmədir.

**Emosional-affektiv fəaliyyət** - təhsilalanların yanaşmaları, hiss və emosiyaları, dəyərlərə münasibətlərinin hərəki (psixomotor) və idraki fəaliyyətlərində təzahürüdür.

**Əsas standart** - fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir.

**Faktoloji bilik** - hər hansı fənlə bağlı elmi informasiyalar daxildir. Mühüm anlayış və faktlar, terminologiya, təriflər və s. faktoloji bilik hesab olunur.

**Fəal təlim** - şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

**Fəaliyyət** - 1. hər hansı bir sahədə iş, çalışma; fəallıq göstərmə; aktivlik. 2. İş, işləmə.

**Fəndaxili inteqrasiya** - fənn daxilində mövzular arasında yaradılan əlaqədir. İki növü var: şaquli və üfüqi. Şaquli inteqrasiya məzmun standartlarının siniflər üzrə əlaqəsini əhatə edir. Üfüqi inteqrasiya məzmun xətləri arasındakı əlaqələri əhatə etdiyindən müəllim imkan daxilində bir neçə məzmun xəttinə dair məzmun standartına müraciət etməklə təlim prosesində uğurlu nəticə əldə etmiş olur.

**Fənlərarası inteqrasiya** - bu zaman müəllim müxtəlif fənlərə aid bir-birini tamamlayan və ya oxşar olan standartları seçir. Fənlərarası inteqrasiya şagirdlərə məzmunu tam şəkildə mənimsəməyə və həyatla əlaqələndirməyə imkan yaradır

**Formativ qiymətləndirmə** - təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini və səmərəliliyini təmin edir, şagirdlərin təlim ehtiyaclarının öyrənilməsinə imkan yaradır və şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir.

**İdraki fəaliyyət** - idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, xatırlamaq, anlamaq, tətbiq etmək, təhlil etmək, dəyərləndirmək, yaratmaq, mühakimə yürütmək və s. idrakı fəaliyyət hesab olunur.

**İdrak taksonomiyası** - idraki fəaliyyətin iyerarxiyaya əsaslanan təsnifatını özündə əks etdirir.

**İnkişafyönümlülük** - şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, baçarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir.

**İnteqrasiya** - müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində fəndaxili, fənlərarası və fənnüstü olmaqla onun üç növündən istifadə edilir.

**Kompetensiya -** bilik, bacarıq və dəyərlərin kombinasiya olunmuş istifadəsi kompetensiya adlanır.

**Konseptual bilik -** kateqoriya, təsnifat, prinsip, ümumiləşdirmə, nəzəri model və strukturlar, həmçinin onlar arasında əlaqəni göstərən bilik növüdür.

**Kurikulum -** təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir.

**Qaynaq -** tədqiqat və araşdırmalar məqsədi ilə istinad edilən elmi, tarixi, bədii, fəlsəfi və b. mənbə.

**Metakoqnitiv bilik -** idraki proseslər haqqındakı məlumatlılıqdır. Şagirdin öyrənmə və idraki proseslər baxımından özünün güclü və zəif tərəflərini bilməsi onun metakoqnitiv biliyə sahib olduğunu göstərir.

**Məzmun xətti -** fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmununun zəruri hissəsidir.

**Məzmun standartı -** dövlətin təhsilalanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir.

**Paralinqvistik vasitələr -** jest (əl hərəkətləri) və mimika (üz hərəkətləri).

**Şagird nailiyyətləri -** bilik və bacarıqlar əsasında qazanılan dəyərlərdir.

**Şəxsiyyət -** 1. bir şəxsə xas olub onun fərdiyyətini müəyyən edən xüsusiyyətlərin məcmusu. 2. Öz xarakteri, əxlaqı, cəmiyyətdə mövqeyi və s. baxımından insan, şəxs, sima.